www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 sentyabr 2015-ci il Bazar ertəsi № 197 (6225) Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda iki qardaş polisi döyərək xəstəxanalıq etdi

yazısı səh.14-də

**Gündəm**

### Azərbaycan Vətən müharibəsi Astanasında - savaşa hazırıqmı?



Şanlı ordumuz hərəkətə keçdi, irimiqyaslı təlimlər başladı; Pənah Hüseyn: "Dövlət qətiyyətli addımlar atacaqsa, cəmiyyət də onu müdafiə edəcək..."

yazısı səh.11-də

### YAP-ın seçki siyahısının açıqlanması bu həftəyə qaldı

yazısı səh.9-da

*Ekspert:*

### "Azərbaycana qarşı ciddi bir kampaniya başlayıb"

yazısı səh.6-da

### Ölkədə benzin niyə ucuzlaşmır? -iqtisadçılar əsas iki səbəb görür...

yazısı səh.13-də

### Çətirlə tualetə gedən sakinlər, Abid Şərifovun vədi və...

yazısı səh.12-də

### İŞİD artıq postsovet ölkələrinin sərhədlərindədir - Azərbaycan da təhlükədə...

yazısı səh.9-da

*Arzu Nağıyev:*

### "Trend"də işlədiyim 4 il sanki 10 ildir..."

yazısı səh.7-də

### Xanım siyasətçilər Leyla Yunus və Xədicə İsmayılın müdafiəsindən danışdılar

yazısı səh.6-da

### Banklar müştərilərini sürətlə lombardlara uduzur - əməkdaşımızın qeydləri

yazısı səh.14-də

### Miqrantların Azərbaycana üz tutmamasının əsas səbəbi

yazısı səh.3-də

### Qərbi Azərbaycana kürd təhdidi - 580 minlik köç!

yazısı səh.3-də

## Cahangir Hacıyev haqda heç yerdə getməyən heyrətamiz xəbərlər

# BANKİR VİLLASININ GÖZƏTÇİSİNİ NECƏ MİLYONÇU EDİB - SENSASİYA!

Beynəlxalq Bankın sabiq rəhbəri sıravi işçilərinin adına milyonlarla kredit sənədləşdirib, onları banklara borclandırıb; "Bank Technique"də depoziti olanlardan 20 faiz "şapka" istənilir; bəzi müştərilərə isə bankdakı pulların əvəzində Hacıyevin tikdirdiyi binalardan ev almaq təklif edilir...



yazısı səh.5-də

## Rusiya 7 rayonu qaytarır, amma nəyi alır - blef, yoxsa...

"Moskvanın Bakı və İrəvan üçün yeni planı var..."; prezidentlərin Nyu-York görüşünün baş tutmayacağı haqda xəbərin ardınca Qarabağ məsələsində Kremlin konstruktiv görünmək istəməsinin pərdəarxası; Sərkisyan Moskvaya təcili niyə çağırılıb...

yazısı səh.8-də



### Sevil Əliyeva qəfildən sahibi olduğu "Space" kanalına gəldi

yazısı səh.5-də



*Musa Quliyev:*

### "Sosial mənzillər tam təmirli şəkildə vətəndaşlara veriləcək"

yazısı səh.10-da



*Novella Cəfəroğlu:*

### "55 yaşdan yuxarı şəxslər deputat olmasalar yaxşıdır"

yazısı səh.10-da

7 sentyabr 2015

# Akif Nağı Xankəndidən deputat olmaq istəyir



**Bir müddət öncə "Qarabağa azadlıq!" seçki platforması ilə seçkilərə qatılacağını bəyan edən Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı mübarizə aparacağı dairəni müəyyənləşdirib. Bu barədə "Yeni Müsavat"a daxil olan məlumata görə, QAT sədri parlament seckilərində namizədliyini 122 saylı Xankəndi seçki dairəsindən irəli sürmək istəyir.**

Məlumat verən mənbə dedi ki, Qarabağ separatçılarının "paytaxt" elan etdikləri Xankəndi seçki dairəsi üzrə məhz Qarabağ Azadlıq Təşkilatı sədrinin namizədliyini irəli sürməsi və parlamentə mandat qazanması "müharibə partiyası" üzvü olması baxımından ciddi psixoloji, təbliğati əhəmiyyət kəsb edərdi. İddia olunur ki, onun Qarabağ məsələsinin həlli ilə bağlı radikal mövqeyi bütövlükdə Azərbaycanın işinə yaraya bilər.

Məlumatı dəqiqləşdirmək üçün Akif Nağı ilə əlaqə saxladıq. Təşkilat sədri bidirdi ki, rəhbərlik etdiyi qurumda ona belə bir təklif edilib: "Amma hələ qəti qərar verməmişəm".

❑ **Cavid TURAN**



# Azərbaycanın tanınmış alimi vəfat edib

**Görkəmli dilçi və türkoloq alim - akademik Ağamusa Axundov sentyabrın 5-də vəfat edib. Bu barədə "Azadlıq" radiosuna mərhumun yaxınları məlumat veriblər. Ağamusa Axundov dil və ədəbiyyata dair fundamental araşdırmaların müəllifi idi. O, son illər AMEA-nın Rəyasət Heyətinin müşaviri çalışırdı.**

Ağamusa Axundov 1932-ci il fevralın 2-də Kürdəmir şəhərində doğulub. Orta məktəbi medalla bitirdikdən sonra ADU-nun filologiya fakültəsində (1950-1955-ci illər) və Azərbaycan Pedaqoji Dillər İnstitutunun Qərbi Avropa dilləri fakültəsində təhsil alıb (1959-1965).

Eyni zamanda ADU-nun aspirantı, müəllimi (1958-1959), baş müəllimi (1959-1961-ci illər), dosenti (1961-1967), universitetin ümumi dilçilik kafedrasının professoru, filologiya fakültəsinin dekanı (1967-1974 və 1980-1990), Ümumi dilçilik kafedrasının müdiri (1981-1999) olub.

AMEA-nın həqiqi üzvü (2007), Dövlət mükafatı laureatı (1986), Əməkdar elm xadimi (1990) idi.

# Bu gün Bakıda 34 dərəcə isti olacaq



**Bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, mülayim cənub-şərq küləyi əsəcək, gecə 20-24, gündüz 29-34 dərəcə isti olacaq.**

Abşeron çimərliklərində dəniz suyunun hərarəti Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 24-25°, Zağulba, Buzovna, Mərdəkan və Şüvəlanda 25-26°, Türkan, Hövsan, Şıx və Sahildə 26-27° isti təşkil edəcək.

Azərbaycanın bölgələrində hava əsasən yağmursuz olacaq. Lakin səhər bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var.

# Misir Mərdanov bazarlıqda

**Sabiq təhsil naziri Misir Mərdanov dünən Novxanı kəndindəki "Supermarket N1" adlanan marketdə bazarlıq edib. Onu görüntüləyən musavat.com əməkdaşı redaksiyaya bir neçə foto yollayıb.**

Həyat yoldaşı ilə birgə alış -veriş edən sabiq nazir musavat.com əməkdaşına yaxın gələcəkdə özəl müsahibə sözü də verib. Misir Mərdanov müxbirimizə deyib ki, Novxanıdakı bağ evində yaşayır. Müxbirimizin "deputatlığa namizədliyinizi verəcəksinizmi " sualına isə sabiq nazir gülərək "yox" cavabı verib.

❑ **Musavat. com**





# Qaradağda 3 qardaş ər və arvadı küçədə döydü

**Bakının Qaradağ rayonunda üç qardaş birlikdə ər və arvadı döyüblər. Musavat.com xəbər verir ki, rayonun Qızıldaş qəsəbəsində 3 qardaş yolda ər və arvadı döyüblər. Qadın əl və ayağından bıçaq zərbələri də alıb.**

Hadisəni törədənlər qəsəbə sakinləri Mehman, Rövşən və Rəhman Alıyev qardaşları olub. Onlar xuliqanlıq zəminində 1979-cu il təvəllüdlü Şəadət Mahmudovu və onun arvadı, 1986-cı il təvəllüdlü Ülkər İldırımı döyüblər. Onlar Ü.İldırımı əl və ayağından bıçaqla vurublar.

Hadisə nəticəsində ər və arvad xəstəxanaya yerləşdirilib. Hadisəni törədən qardaşlar saxlanılıb.

Faktla bağlı araşdırma aparılır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# ABŞ PKK liderini türk ordusundan xilas etdi - Şok



**PKK terror təşkilatının liderlərindən Cəmil Bayık türk xüsusi təyinatlılarının əlindən son anda xilas olub. Axar.az xəbər verir ki, bu barədə Türkiyə iqtidarına yaxın "Vəhdət" qəzeti yazıb. Türkiyənin Qəndili bombalamasından sonra Cəmil Bayık yaxınlıqdakı kəndlərdən birinə qaçıb.**

Bu məlumatı əldə edən Türkiyə ona qarşı əməliyyat hazırlayıb. Lakin əməliyyat son anda ABŞ tərəfindən Cəmil Bayıka çatdırılıb və o qaça bilib.

# Mehman Hüseynov yenə saxlanıldı və... buraxıldı

**Bloqçu, reportyor Mehman Hüseynov sentyabrın 6-da Sabunçu rayonunda ASAN Xidmətdən şəxsiyyət vəsiqəsini almaq istəyərkən polis tərəfindən saxlanılıb. Bu barədə "Azadlıq" radiosuna Mehman Hüseynovun özü məlumat verib. O, 13-cü polis bölməsinə aparılıb.**

Bir neçə saatdan sonra sərbəst buraxılan Hüseynova bölmə əməkdaşları bildiriblər ki, saxlanılmasına səbəb Səbayel Rayonu Polis İdarəsi tərəfindən ona "stop" qoyulmasıdır.

Bloqçunun dediyinə görə, bölmədə ondan iltizam alınıb və sərbəst buraxılıb. Başqa sözlə, M.Hüseynov sentyabrın 7-də Səbayel polisinə bir daha getməlidir.

Mehman Hüseynov şəxsiyyət vəsiqəsinin bir il əvvəl saxta ittihamla Xətai Rayon Polis İdarəsi tərəfindən əlindən alınaraq ləğv olunduğunu iddia edir. ASAN Xidmətə də yeni şəxsiyyət vəsiqəsi almaq məqsədilə müraciət edib. 3 gün əvvəl ona yeni vəsiqənin alınmasında heç bir problemin olmadığı deyilsə də, sentyabrın 6-da quruma müraciət edən bloqçu vəsiqəni ala bilməyib.

Olaya rəsmi qurumlardan münasibət öyrənmək mümkün olmayıb.

# Xəstə ziyarətinə gələn şəxs xəstəxanada öldü

**Bakıda 48 yaşlı kişi xəstəxananın həyətində vəfat edib. Bu barədə məlumatı musavat.com-a hadisənin şahidləri veriblər. Məlumata görə, Bakı şəhər sakini, 1967-ci il təvəllüdlü Hikmət Hüseynov ürək çatışmazlığından ölüb.**

Hadisə Binəqədi rayonundakı 6 saylı xəstəxananın həyətində baş verib. 48 yaşlı kişinin xəstə yanına ziyarətə gəldiyi, lakin xəstəxananın həyətində vəfat etdiyi bildirilir.

Faktla bağlı araşdırma aparılır.

❑ **İlkin MURADOV**

**"Elm" tədris mərkəzi**

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05

# Bakıda 15 yaşlı kəlbəcərli qız itib

**Bakıda 15 yaşlı kəlbəcərli qız itib. Modern.az xəbər verir ki, bu barədə itkin düşən Muxtarova Kəmalənin atası Elçin Muxtarov məlumat verib. Elçin Muxtarov Azadinform-a bildirib ki, sentyabrın 2-də, saat 13:15 radələrində evdən çıxan qızı Kamalə Muxtarova bir daha geri qayıtmayıb:**

"Qızımı sonuncu dəfə yaşadığımız binanın həyətində görüblər və o qonşu qızlara telefon nömrəsini dəyişəcəyini, sonra isə bacısıgilə gedəcəyini söyləyib, amma bacısıgilə gedib çıxmayıb. Günün sonunda isə onun telefonuna zəng çatmayıb".

K.Muxtarovanın atası Bakı şəhər Baş Polis İdarəsinə və 23-cü Polis Bölməsinə müraciət etdiklərini söyləyir: "Aradan beş gün keçsə də qızımdan xəbər yoxdur. Polis bizə heç bir informasiya vermir və harada axtardıqlarını da demirlər. Daha doğrusu axtarışın aparılmasını hiss etmirik".

Qeyd edək ki, əslən Kəlbəcər rayonunun Zülfüqarlı kəndindən olan Muxtarovlar ailəsi hazırda Keşlə Dəmiryol Yataqxanasında məskunlaşıblar.

# Saakaşvili Ukrayna oliqarxlarını "bandit" adlandırdı

**Odessa vilayətinin qubernatoru Mixail Saakaşvili öz facebook səhifəsində Dnepropetrovsk vilayətinin sabiq qubernatoru İqor Kolomoyskonun ittihamlarına cavab verib.**

Xatırladaq ki, ukraynalı oliqarx bir az əvvəl Saakaşvilinin onun haqqında dediklərini şərh edərkən Gürcüstanın sabiq prezidentini "xaltasız it" ilə müqayisə etmiş və bildirmişdi ki, onu yenidən Gürcüstana göndərmək lazımdır.

Saakaşvili isə ad çəkməyib, yalnız onun ittihamlarına istinad edib. Bildirib ki, o, oliqarxın dediklərini onu ələ almaq və etibardan salmaq cəhdləru uğrsuzluğa düçar olduğundan "birbaşa təhlükə" hesab edir.

Saakaşvili onu da xüsusi vurğulayıb ki, Ukrayna xalqının on illərdən bəri azğın bandit hərəkətləri nəticəsində harınlaşmış bu oliqarxlara lazım olduqları yeri göstərəcəyinə inanır.

Xatırladaq ki, Saakaşvili bundan əvvəl Ukrayna baş nazirinin ünvanına da çox ciddi ittihamlar səsləndirmiş və bildirmişdi ki, Ukrayna hökumətini oliqarx maraqlar idarə edir.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Qərbi Azərbaycana kürd təhdidi - 580 minlik köç!

**Kürd terror qruplaşmaları İranın mərkəzi hakimiyyətinin mövqeyindən aldığı cəsarət hesabına Güney Azərbaycanın qərb bölgəsini müxtəlif yollarla kürdləşdirməyə çalışır. Bu barədə GünAz TV xəbər yayıb.**

Məlumata görə, keçmiş illərdəki təcrübələr göstərib ki, qruplaşmaların kürd ailələrinə olan sifarişi əsasən "çoxuşaqlılıq", lazım olan əraziyə "mühacirət etmək" və "qaçaqmalçılıq" işi ilə məşğul olmaqdan ibarət olub. Onlar qaçaqmalçılıqdan əldə etdikləri vəsait hesabına çoxuşaqlı ailəni təmin edir, istədikləri əraziyə mühacirət edir və o torpaqlarda yaşayış və iş yerləri alırlar.

Son məlumata görə, Qərbi Azərbaycan valisi ötən illərdə kürdlərin bu vilayətə üz tutması barədə tarixi etirafda bulunub. Vali Qurbanəli Səadət bildirib ki, "Qərbi Azərbaycan müxtəlif məzhəblər və qövmlərlə rəngarəngdir. Bu bölgə müharibə vaxtı və hazırda isə müharibədə olan ölkələrlə qonşu olduğuna görə bir çox şansları əldən verib. İnqilabdan sonra da Qərbi Azərbaycan narkotik maddələrinin tranzitinə görə bir çox imkanlarını itirib. Son illərdə İraqda olan ixtilaflar bu bölgəyə müəyyən təsir edib və İraqın quzeyindən Qərbi Azərbaycana 580 000 nəfər üz tutub".

Vali həmçinin bildirib ki, iqtisadiyyat naziri ölkədə inflyasiyanın 15 faizin altında olduğunu bildirdiyi halda, Qərbi Azərbaycanda inflyasiya 18,6 faizdir. "Bu vilayətdə 40000 nəfər ali təhsilli cavan işsizdir və əkinçilik sahəsində əlavə dəyər olduqca aşağıdır."



Qeyd edək ki, yuxarıda qeyd olunduğu kimi, Qərbi Azərbaycanda "Pjak" kürd terror qruplaşmasının fəaliyyəti, radikal kürdlərin gündən-günə aktivləşməsi və bu bölgədə olan ekoloji və işsizlik problemi zaman-zaman yerli məsullar tərəfindən dilə gətirilir, lakin problemlərin həlli istiqamətində heç bir əməli addım müşahidə olunmur.

❑ **Cavid TURAN**

# Miqrantların Azərbaycana üz tutmamasının əsas səbəbi

## Natiq Miri: "Bu insanlar avtoritar rejimlərdən qaçırlar..."



Natiq Miri

**Hazırda bütün dünyanın müzakirə mövzusu suriyalı miqrantların qarşılaşdıqları vəziyyətdir. Miqrantlar əsasən Avropa ölkələrinə üz tuturlar. Bu yolu seçən suriyalıların başına gələnlər isə insanlıq adına ləkə kimi qiymətləndirilir.**

Artıq Körfəzi keçərək Avropa ölkələrinə üz tutmaq istəyən minlərlə miqrant boğularaq ölüb. Dənizdə batan insanların, qonşu ölkələrlə sərhədlərdə tikanlı məftillər üstündən keçirilən uşaqların və ya küçələrdə yatan ailələrin təsirli fotoları həm sosial şəbəkələrdə, həm də dünya mətbuatında yer alır.



Qeyd edək ki, əksər Avropa ölkələri miqrantların ölkəyə buraxılmasını təhlükə kimi dəyərləndirir. Miqrantların qəbul edilməsini həm ölkə iqtisadiyyatının problemlərlə üzləşməsinə, həm də vətəndaşların normal yaşayışına mane olacağını düşünən Avropa ölkələri onlardan imtina etməyə çalışır. Bir neçə gün əvvəl Almaniya miqrantlara öz qapısını açdı. Artıq Macarıstandan avtobusla yola düşən minlərlə miqrant Avstriyaya çatdıqdan sonra Almaniyaya yolanmaqdadırlar.

Bu arada məlum olub ki, Avropa İttifaqı ölkələri miqrantların yerləşdirilməsi üçün toplantı keçirəcək. Belə ki, quruma daxil olan ölkələrin daxili işlər və ədliyyə nazirləri böhranı müzakirə etmək üçün sentyabrın 14-də Brüsseldə görüşəcəklər.

Suriyalı miqrantlar bu günədək müsəlman ölkələrindən ən çox Livan, İordaniya və Türkiyə kimi ölkələrə pənah gətiriblər. Suriyalı miqrantların Körfəzdə yerləşən zəngin ərəb ölkələri tərəfindən qəbul edilməməsi də dünya mətbuatında və sosial şəbəkələrdə ən çox müzakirə olunan və qəzəbə səbəb olan məsələlərdəndir.

Xatırladaq ki, Körfəzdə yerləşən Küveyt, Bəhreyn, Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Oman kimi neftlə zəngin ərəb ölkələrinə suriyalıların viza alaraq keçməsi çox çətin prosesdir. Suriyalılar rəsmi şəkildə ya turist kimi, ya da iş icazəsi ilə viza alaraq Körfəz ölkələrinə keçə bilirlər. Ərəb ölkələrində suriyalılar əsasən ucuz işçi qüvvəsi kimi qəbul edilir. İndi isə Suraiyada yaşananlardan sonra miqrantların ərəb ölkələrinə gəlməsinə qeyri-rəsmi qadağa var.

Miqrantlar əsasən Avropa ölkələrinə üz tuturlar. Azərbaycan və İran kimi ölkələrə də qaçanların getməsi hələ ki, müşahidə olunmur. Görəsən niyə?

Politoloq Natiq Miri miqrantların ərəb ölkələrinə üz tutmamasının bir neçə səbəbini açıqladı: "Bu insanlar avtoritar rejimlərdən qaçırlar. Onlar azad ölkələrə getmək istəyirlər. Ən azından tam hüquqlu azad insan kimi yaşamaq, övladlarının demokratik bir ölkədə böyüməsini istəyirlər. Digər bir tərəfdən belə azad ölkələrdə biznes strukturları yaratmaq asandır. Həmin miqrantlar bunu da nəzərə alırlar.

Başqa bir səbəb də ərəb dünyasında görünməyən əllərdir. Bir neçə il əvvəl "Ərəb baharı" deyilən bir proses başladıldı. Bu proses çox pis idarə olunduğundan ərəb dünyasına azadlıq gətirmədi. Əksinə, böyük bir xaos və savaş mühiti yaratdı. Bu proses indi də davam edir. "Ərəb baharı"nın bu gün hansı fəsadlar gətirdiyini həmin Qərb ölkələri başa düşür və məsuliyyəti öz üzərlərində hiss edirlər. Artıq bu yöndə strateji qərarlar veriləcək. Yəqin ki, bundan sonra Qərbin Şərqdə yürütdüyü xoşagəlməz proseslər dayandırılacaq".

Politoloq suriyalı miqrantların Azərbaycana və qonşu müsəlman ölkəsi olan İrana üz tutmamasının səbəbini də şərh etdi. Onun fikrincə Azərbaycan və İran azad və demokratik ölkə olmadığından suriyalı miqrantların seçim yeri olmur: "İran da müsəlman ölkəsidir. Amma suriyalı miqrantlar oraya üz tutmur. Çünki İran da azad ölkə deyil. İranda da iqtisadiyyat tam olaraq liberal deyil. Həmçinin Azərbaycan azad ölkə deyil. Fikir verirsinizsə, bütün demokratik dünyanın verdiyi hesabat sənədlərində Azərbaycanın tutduğu yer hər şeyi göstərir. Azərbaycan bu gün demokratiya və insan hüquqları baxımından ən geridə qalmış Afrika ölkələri ilə bərabər eyni siyahıda tutulur. O miqrantların da, əlbəttə ki, Azərbaycanla bağlı məlumatları var. Və buna görə də Azərbaycana gəlmirlər".

❑ **İlkin MURADOV**

# Möhkəm olun, xəbər var



**Araz BAYRAMOV**

**Araşdırmaçıların dediyinə görə müasir insan öz sələflərinə nisbətən daha, unutqandır. Xüsusən uzaq keçmişdə baş vermiş hadisələri daha çətin xatırlayır, bəzən heç xatırlamır. Səbəbi də hər gün, aralıqsız, həddindən çox informasiya qəbul etməyimizdir.**

Biz gün ərzində lazım olandan çox xəbər eşidirik. Özü də əksəriyyəti lazımsız xəbərlər, elanlar olur. Onlar bizim yaddaşımıza güclü şəkildə həkk olunmur, amma baş vermiş bir çox önəmli hadisələrin izini, xatirələri yerindən oynadır, onları məhv eləyir.

Bu tip araşdırmalarla məşğul olan həkim, ya alim olsaydım, beynimizin informasiyaları tələb etməsini də araşdırardım. Çünki belə bir ehtiyacın artıq yaranmış olduğunu düşünürəm. Zira uzun müddət davam edən bu tip bir proses adətən ehtiyaca çevrilir.

Mən uşaq olanda evimizdə nadir ailələrdə görünən bir qayda var idi, televizor qadağan edilmişdi. Özü də təkcə uşaqlara yox, hamıya. Biz onu ancaq tətillərdə, bayramlarda görürdük. Sentyabrın biri olan kimi yığışdırılırdı, bir də yeni il ərəfəsində gəlirdi, tətil bitən kimi yenə yığışdırılırdı. Baş qatmağa bir şey olmadığından meylimizi bədii ədəbiyyata salmışdıq. Hətta mən kitab oxumağa o qədər dərindən girişmişdim ki, valideynlərim məktəbimizin kitabxanaçısına mənə kitab verməməyi tapşırmışdılar. Düzdür, indi də bizim televiziya kanallarına baxmıram, amma indi elədiklərimə baxanda həmin illəri gözəlliklə xatırlayıram. Ən azından beynimi sosial şəbəkələrdəki mənasız informasiyalarla deyil, rus ədəbiyyatı ilə doldururdum, ətrafımdakılar "Tək səbir"in duzsuz zarafatlarına güləndə mən Əziz Nesinin yazdıqlarına gülürdüm.

Bunları yazmaqda məqsədim informasiyaya arxa çevirməyi təbliğ etmək deyil. Müasir dünyada bunu edərək yaşamaq az qala tərki-dünyalıqdır, bunsuz mümkün deyil. Uğur informasiyanın əlindədir. Lakin onlardan xeylisinə qulaq tıxamağın lazımlı olduğunu düşünürəm. Hərdən yanımda kimsə hansısa müğənninin, ya mənasız birinin haqqında son baş verənləri deyəndə dayandırıram ki, lütfən danışma. Elə bilirəm bununla beynimə qarşı işğalçılıq əməliyyatı aparılır.

Xüsusən də Azərbaycan kimi ölkələrdə çətindir. Məsələn, hazırkı iqtidarın ən çox öyündüyü məsələ sabitlikdir. Əhaliyə də bu təlqin edilir ki, hər şey yaxşıdır, müharibə yoxdur, başqa ölkələrdə ölüm-itim varkən bizdə sakitçilikdir və s. Amma bir ölkənin günlük xəbər siyahısında nə qədər qətl, boğulma, şəhid, baş kəsmə, oğurluq, yanğın, qəza və bu tip xəbərlər olar? Hələ bu aralar havalar bir qədər sərindir deyə dənizə az adam gedir, avqustun əvvəllərində gündə ən azı 3 boğulub ölmə faktı qeydə alınırdı. Vəziyyət o qədər gərgindir ki, hətta kiçik bir müsbət xəbərə də sevinməkdən doymuruq.

"92-93-də küçəyə çıxa bilmirdik" klişesi indi daha da mənasızlaşıb. Ər arvadının başını kəsdi, arvad ərini doğradı, ata oğlunu bıçaqladı, qardaş bacısını öldürdü, toyda kütləvi zəhərlənmə - filan qədər adam öldü, əsgər öz əsgər yoldaşını, ya komandirini güllələdi, jurnalist döyülüb öldürüldü, qardaş bacısına təcavüz etdi, cavan oğlan özünü qatarın altına atdı, yeni evlənmiş gəlin özünü asdı..

Xülasə, Azərbaycanda yaşayırsınızsa, xəbər axınının içində bunları eşidəcəksiniz. Dövlətin yanlış siyasətindən doğan çatışmazlıqların ağır nəticələri... Hər nə qədər biz xəbərçilər üçün çətin olsa da, həqiqət budur. Azərbaycanda gündəlik xəbərlər içərisində müsbət hadisə çox azdır.

Axından qaçmaq isə mümkün deyil, hələ postneft dövrünün xəbərləri də gəlir. Yəqin, yeganə çarə möhkəm olmaqdır.



# Röya niyə Aygündən baha oxuyur?

Elşad PAŞASOY
epashasoy@yahoo.com

## Və ya Taarif Şurası toy müğənnilərini durduracaqmı?

**Son dövrlərdə toylardan çox danışırıq. Məsələn, ardıcıl bir neçə dəvətnamə gələndə "bu toylar da məni yıxdı" deyib deyinənlərimiz, restoranların dikdiringi musiqisinin sədalarından, tullanıb-düşənlərin ətökən davranışlarından canını qurtarmaq üçün elə qapıdan nəmər yazdırıb geri dönənlərimiz, menyudakı israfçılıqdan bəhs edənlərimiz xeyli çoxdur.**

Bir şeyə əminəm, biz özümüz vəziyyətdən çıxış tapası, bu sahədə qayda-qanun yaradası deyilik. Hətta adam tanıyıram ki, daim israfçılığa qarşı olub, ancaq övladının xeyir işində "el-oba mənə nə deyər" prizmasından yanaşıb məclisini ən zəngin menyu ilə yola verib. Ona görə də bu məsələdə qayda-qanun yaradılmasına, lap inzibati yolla da olsa, sərt tədbirlərin görülməsinə ehtiyac var. Əks təqdirdə ata israfçılığa qarşı olacaq, ana əksini deyəcək, yaxud hər ikisi razılaşacaq, ərə gedən qız, ya evlənən oğlan "mənim toyum bir dəfə olur" deyib iki ayağını bir başmağa dirəyəcək, "quş südü" tələb edəcək.

Yadınızda olar, iki il əvvəl Azərbaycanda bir nəfər toyuna gəlməyən 80 nəfəri məhkəməyə vermişdi. Demişdi özü həmin adamların toyuna gedib, ancaq onlar heç olmasa nəmər də göndərməyiblər. Bu işin sonrasından xəbərimiz olmadıE Dünyada böhran küləkləri əsdikcə biz də gərək "yorğanımıza görə ayağımızı uzadaq". Dəyərli iqtisadçı alim Qubad İbadoğlu bu günlərdə vəziyyətə uyğun olaraq ailə büdcəsinin formalaşdırılması ilə bağlı gözəl təhlil yazıb. Məncə, burada toy xərcləri də yer almalıdır.

Keçən ay rayonların birində qaynananı "girov" götürmüşdülər, yəqin eşitmisiniz. Toy sahibi 1000 manat borcu ödəyəndən sonar "girov" azad edilmişdi. Şəxsən şahidiyəm, yaxın qohumumun oğlunun toyunda restorana 17.500 manat saydıq, axırda su istədik, "anbar bağlanıb" dedilərE

Əgər hər 7-8 nəfərdən biri boşanırsa, bu, ciddi rəqəmdir. Boşanmalarda toy stresi də öz sözünü deyirE

Təbii, toylardan qaz vurub qazan dolduranlar da var. Söhbət toy müğənnilərindən gedir, özü də rayonlarda 100-150 manata toya gedənləri demirəm. Artıq bu müğənnilər oliqarxa çevriliblər. Təqribən 5 il əvvəl qəzetimiz bir müğənni haqda yazmışdı ki, toyun yarım saatını 3 minə oxuyir. Zəng edib and-aman elədi ki, o, belə bahacıl deyil. Ancaq qısa vaxtda o qədər şişdi ki, indi maşın kolleksiyası ilə meydan oxuyur.

Ancaq artıq müğənnilər adamlara qiymətlə "toy" tutmalarından çəkinmirlər, əksinə, bununla öyünürlər. Buyurun, müğənnilərin öz dillərindən oxuyun:

Nuri Sərinləndirici: "Bakıda bütöv toy 15 min, bölgələrdə isə 20 min manat". Afaq Aslan: "Bütöv toya getmirəm. Yarım saat 1000-1500 manat arasındadır". Günay İbrahimli: "Yarım saat 3 min, bütöv 8 min". Pərvin Lətifov: "Yarım saatı 1500, bütöv toyu 4 min manata oxuyuram". Aysel Əlizadə: "Bütöv toya getmirəm. Yarım saatı 1500 manat". Ayan Babakişiyeva: "Bütöv toya getmirəm, yarım saat 2500 manat".

Hələ mən o qədər də tanınmayanlardan yazdım. Demirəm ki, Röya yarım saat üçün 8 min, Aygün 6 min, Mətanət 3500, Elton 4 min, Nazənin 2 min istəyir. Bilal Əliyevsə toya 1 milyon manata (!) gedirmiş. Deyib "mənim toy qiymətim budur". Yəqin bir azdan manatla yox, dollarla oxuyacaqlar...

Dövlətə vergi vermək məsələsi gələndə isə biri bank kreditlərindən danışıb ağlaşma qurur, başqası da...Nə isə vəziyyət belədir. Təbii ki, heç kim camaatı məcbur etmir ki, hansısa bahalı müğənnini toyuna çağırsın, boğazından kəsib ona versin. Ancaq əgər bu adamlar xalqın artirstidirsə, onda heç olmasa xalqın durumuna uyğun qiymətlər qoymalıdır. Bu ölkədə bəlli kəsimi çıxsaq, kim yarım saata 3-5 min qazanır?

Həkim, ya müəllim müğənninin yarım saata qazandığını heç repititorluqla bir ilə çıxara bilmir. Bu il ölkədə 1000 tələbə oxumaqdan imtina etdi, təhsil haqqında görə. Müğənnilərsə o pulu yarım saata qazanır. Bu fakt insanlara çox pis təsir edir, həm də gəncliyi təhsil ardınca yox, mikrafon tutmağa həvəsləndirir. Görün efir kimin əlindədir, həmin bu toy müğənnilərinin. Yarım saat toyda oxu, 5 min qazan, apar ver teleaparıcıya, bütün verilişi sənə həsr eləsin...Vəziyyət belədir. Xalqa toy tutan müğənniləri durdurmaq lazımdır. Onlar gerçək sənətkarları da küncə sıxışdırıblar, fərqindəsinizmi? Bəlkə də Taarif Şurasının qərarı olmalıdır. Dərman qiymətlərində maksimum qiymət qoyula bilir, müğənnilərə yox?

# Azərbaycanda "JEK"lər ləğv olunacaq

## Arif Rəhimzadə: "Prezidentin fərmanı ilə bələdiyyələrin və mənzil-istismar sahələrinin üzərindən böyük bir yük götürülüb"

**Azərbaycanda mənzil-istismar sahələri bir müddət sonra ləğv olunacaq. Bunu Trend-ə açıqlamasında Milli Məclisin Regional məsələlər Daimi Komitəsinin sədri Arif Rəhimzadə deyib.**

Komitə sədrinin sözlərinə görə, avqustun 31-də prezident İlham Əliyev tərəfindən yaşayış yeri üzrə arayışların verilməsi və digər məsələlərlə bağlı imzalanan fərmanla bələdiyyələrin və mənzil-istismar sahələrinin üzərindən böyük bir yük götürülüb: "Bələdiyyələr mənzil-istismar sahələrinin sənədləşmə sahəsindəki funksiyalarını üzərlərinə götürsəydilər, bu, bələdiyyələr üçün böyük yük olardı. Cənab prezident bu məsələni asanlaşdırdı. Yenilik gələcəkdə bələdiyyələrin səlahiyyətlərinin genişləndirilməsinə bir siqnaldır. Yaxın gələcəkdə bələdiyyələr mənzil-istismar sahələrinin digər səlahiyyətlərini də üzərlərinə götürə bilsələr, o halda mənzil-istismar sahələri kənarda qalacaqlar. Qanunvericiliklə bələdiyyələrə belə hüquqlar verilib".



A.Rəhimzadə qeyd edib ki, çoxlarının "JEK" adlandırdığı mənzil-istismar sahələri gec-tez ləğv olunacaq: "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində mənzil-istismar sahələrinin, ümumiyyətlə, adı yoxdur. Amma onların icra edəcəyi funksiyaları qalır. Dövlət başçısı bu funksiyaların böyük bir hissəsini "ASAN xidmət"ə verdi. Əgər bələdiyyələr digər funksiyaları da öz üzərinə götürsələr, mənzil-istismar sahələri tədricən sıradan çıxmış olacaq. Sadəcə, bunun üçün bələdiyyələrin daha fəal olmaları lazımdır. Mənzil-istismar sahələrinin nə vaxt tam sıradan çıxacağını dəqiq demək mümkün deyil. Proses yerindən asılı olaraq, müxtəlif formalarda baş verə bilər. Bu, həmin yerlərdə bələdiyyələrin nə dərəcədə fəal olacağı və prosesin hansı sürətlə getməsindən asılı olacaq. Hesab edirəm ki, gələcəkdə bələdiyyələr Azərbaycanın inkişafında mühüm rol oynayacaq".

# Azərbaycan alimləri təşkilatlanır; konfrans qərarı verildi

**Azərbaycan Alimlər Birliyinin Təşəbbüs Qrupunun növbəti toplantısı keçirilib. Bu barədə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə və Hüquq İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru Faiq Ələkbərov məlumat verib. O bildirib ki, toplantıda Akademiyanın Tarix, Fəlsəfə və Hüquq, Şərqşünaslıq, Arxeologiya və etnoqrafiya və başqa institutlarda çalışan əməkdaşlarından ibarət Təşkilat Komitəsi yaradılıb.**



Hələlik 14 nəfərdən ibarət olan Təşkilat Komitəsinin üzvləri Yadigar Türkelli, Dilavər Əzimli, Pirağa İsmayılzadə, Əzizağa Ələkbərov, Paşa Həsənli, Yasəmən Qaraqoyunlu, Faiq Ələkbərov, Mirzə Ənsərli, Xeyribəy Qasımov, Alı Balayev, Qədim Qubadov, Tofiq Həsənov və başqalarıdır. Öz imzalarıyla AAB-nin qurulmasını rəsmiləşdirən Təkilat Komitəsinin üzvləri çıxışlarında belə bir qurumun yaranmasının zəruriliyindən bəhs ediblər. Toplantıda yaxın günlərdə Azərbaycan Alimlər Birliyinin təsis konfransının keçirilməsi barədə qərar qəbul edilib.

F.Ələkbərov "Yeni Müsavat"a açıqlamasında bunları bildirib: "Bir neçə il ərzində aparılan müzakirələrin sonucunda qurulan AAB-nin əsas məqsəd və vəzifələri, ilk növbədə, Azərbaycan alimlərinin və elmi ictimaiyyətinin sosial, mədəni, siyasi hüquqlarını müdafiə etməkdən, elmi araşdırmalarının, elmi kəşflərinin Azərbaycanda və dünyada təbliğindən, Azərbaycan gənclərini elmi fəaliyyətə, elmi araşdırmalara təşviq etməkdən ibarətdir. Eyni zamanda, Birlik müxtəlif elm sahəsində çalışan alimlərin elmi əsərlərinin və kəşflərinin ictimai müzakirələrini, əlaqələndirilməsini, təbliğini həyata keçirəcəkdir. Ən əsası Azərbaycan elm və təhsilinin keyfiyyətinin yüksəlməsi üçün əlindən gələni edəcəkdir. Bununla yanaşı, AAB Azərbaycan alimlərinin ictimai və sosial hüquqlarının qorunması üçün də mübarizə aparacaq".

❑ Cavid TURAN

# Azərbaycan səfirlikləri Ermənistanın kiber hücumlarına məruz qalıb

**Azərbaycanın Hollandiya, Belçika və Qatardakı səfirliklərinin internet ünvanları 5 sentyabr 2015-ci il tarixində özünü "Artsax kiber ordusu" adlandıran qrup tərəfindən kiber terror hücumlarına məruz qalıb. Bu barədə Trend-ə XİN-nin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.**

Qısa müddət ərzində səfirliklərin internet saytlarının fəaliyyəti bərpa edilib. Ermənistan tərəfindən Azərbaycan Respublikasının internet resurslarına, o cümlədən ölkəmizin xaricdəki diplomatik nümayəndəliklərinin internet saytlarına kiber terror hücumları davamlı əsasda həyata keçirilir.

Qəsdən vəziyyəti gərginləşdirmək üçün atəşkəs rejimini kobud şəkildə pozan, cəbhə zonasında təxribat-diversiya əməliyyatları törədərək məğlubiyyət və insan itkisi ilə üzləşən və diplomatik müstəvidə tamamilə təcrid olunmuş vəziyyətə düşən Ermənistan kiber terrorizm əməllərinə əl atmaqla öz uğursuzluqlarını "kompensasiya" etməyə cəhd göstərir.



Ermənistan tərəfindən səfirliklərimizin internet saytlarına qarşı olan hücumlar müvafiq olaraq, bu ünvanları "host" edən serverlərə və serverlərin yerləşdiyi ölkələrin internet resurslarına və məkanına qarşı da kiber terrorizm əməlləridir.

YENİ MÜSAVAT
N 197 (6225) 7 sentyabr 2015

## Cahangir Hacıyev haqda heç yerdə getməyən sensasion xəbərlər



# Bankir villasının gözətçisini necə milyonçu etdi - sensasiya!

### Beynəlxalq Bankın sabiq rəhbəri sıravi işçilərinin adına milyonlarla kredit sənədləşdirib, onları banklara borclandırıb; "Bank Technique"də depoziti olanlardan 20 faiz "şapka" istənilir; bəzi müştərilərə isə bankdakı pullarının əvəzində C.Hacıyevin tikdirdiyi binalardan ev almaq təklif edilir...

**"Bank Technique" Açıq Səhmdar Cəmiyyəti (ASC) ciddi maliyyə problemləri ilə üz-üzə qalıb. Bu haqda indiyədək mətbuatda çox yazılıb. "Yeni Müsavat" da mövzu ilə bağlı əldə etdiyi məlumatları vaxtaşırı ictimailəşdirir.**

"Bank Technique"də maliyyə vəziyyətinin pisləşməsi Azərbaycan Beynəlxalq Bankının (ABB) böhrana girməsindən sonra başladı. Bu ilin martında ABB-nin rəhbəri Cahangir Hacıyev tutduğu vəzifədən çıxarıldı. İlk vaxtlar bu, fəqrli şəkildə yozulurdu. Lakin may ayında bir çox tanınmış iş adamının, iri şirkətlərin rəhbərlərinin kredit borcuna görə həbs edilmələri Cahangir Hacıyevin personasını yenidən gündəmə gətirdi. Məlum oldu ki, C.Hacıyev son illər 6 milyard dollar (bəzi iddialara görə 10 milyard) məbləğində maliyyə vəsaitini kredit adı ilə mənimsəyib. O, bir çox şirkətlərə, iş adamlarına yüz milyonlarla, hətta milyardlarla manat kredit verib. Lakin götürülən kreditlər geri qaytarılmayıb.

Bundan sonra Cahangir Hacıyevin nəzarətində olan "Bank Technique"də də ciddi böhran başladı. Artıq bu bank tam iflas həddindədir. Son durumla bağlı dəqiq bilgi almaq üçün əməkdaşımızı "Bank Technique"nin mərkəzi ofisinə yolladıq. Müxbirimizin qeydlərini oxucuların diqqətinə çatdırırıq:

"Hazırda bankla müştərilər arasında da ciddi narazılıq var. Müştərilər banka qoyduqları depozitlərini geri ala bilmirlər.

Musavat.com-un əldə etdiyi məlumata görə, bankın filialları müştərilərdən alınan depozitləri geri qaytara bilmir. Problemin həlli üçün isə müştərilər baş ofisə göndərilir.

Bankın Babək prospektindəki baş ofisində olarkən depozitlərini almağa gələn bir neçə müştəri ilə söhbət edə bildik. Söhbətdən əvvəl bankda apardığımız müşahidə onu göstərdi ki, depozitlərin qaytarılması, demək olar ki, həyata keçirilmir. Bankda əsasən pul köçürmələri, ödənişlər həyata keçirilir.

Bankın ödəniş terminalları əksər yerlərdə faəliyyətini dayandırıb. Elə baş ofisdə olan ödəniş aparatı da işləmir. Ödənişlər kassalarda həyata keçirilir.

Baş ofisdə olduğumuz müddətdə müştərilərdən biri ilə söhbətimiz zamanı məlum oldu ki, 2 aydan çoxdur baş ofisin yollarındadır. Müştəri 27 min dollar depozitini ala bilmir. Depoziti bir il əvvəl bankın Nərimanov filialına qoyan müştəri iki ay əvvəl pulunu geri almaq istəyib. Lakin filialdan pulu geri qaytarmaq imkanlarının olmadığını deyərək, onu baş ofisə göndəriblər. Müştəri də 2 aydır baş ofisə gedib-gəlir. Müştərilərə problemin sentyabr ayında həll ediləcəyi vədi verilib.

Bankın əksər ATM-lərində pul yoxdur. Müştərilər öz hesablarından pul çəkə bilmirlər. Bu əməliyyatı yerinə yetirmək üçün müştərilərə limit qoyulub. Limit günlük 200-300 manatdan çox deyil.

Əmanətlərinin geri qaytarılması sual altındadır. Mərkəzi Bankdan maliyyə vəsaiti ala bilməyən bank müflis olmaq təhlükəsi qarşısındadır. Maliyyə problemi yaşayan bank xeyli sayda əməkdaşını da ixtisar edib, bir neçə filialını da bağlayıb".

***

"Yeni Müsavat"a daxil olan məlumata görə, "Bank Technique" rəhbərliyi pulunu geri almaq istəyən fiziki və hüquqi şəxslərdən 20 faiz "şapka" istəyir. Mələn, bankda 100 min manat depoziti olan müştəriyə təklif olunur ki, məbləğin 20 min manatını rüşvət kimi bank rəhbərliyinə versə, yerdə qalan 80 min manatı ona qaytara bilərlər.

Məlumatda həmçinin bildirilir ki, "Bank Technique"dən pulu çəkmək istəyənlərə başqa variant da təklif olunur. Müştərilərə deyilir ki, pulun əvəzində Cahangir Hacıyevə məxsus şirkətlərin inşa etdiyi binalardan mənzil alsınlar. Həmin vəsait mənzilə silinsin. Bu təkliflə maraqlananlar araşdırmalar zamanı öyrəniblər ki, C.Hacıyev tikdirdiyi binalardakı mənzilləri onlara ən azı iki dəfə baha qiymətə sırımaq istəyir...

Cahangir Hacıyevlə bağlı daha bir sensasion məlumat əldə etmişik. ABB-nin sabiq rəhbərini yaxından tanıyan mənbə deyib ki, C.Hacıyev villasının gözətçisini və bağbanını qəfil milyonçu "edib". Həmin gözətçi bu yaxınlarda kredit götürmək üçün bir banka müraciət edib. Məlum olub ki, onun Beynəlxalq Banka 1 milyon manat kredit borcu var. Araşdırmalar zamanı bəlli olub ki, bu krediti C.Hacıyev gözətçisinin xəbəri olmadan onun adına götürüb. Üstəlik bağbanın da adına 500 min manat kredit rəsmiləşdirib.

Gözətçi məsələni öyrənməyə çalışıb. Ona deyiblər ki, C.Hacıyevin tapşırığı ilə ondan və bağbandan şəxsiyyət vəsiqələri alınanda bu saxtakarlıq baş verib.... Sən demə, bəhanə ilə bir müddət əvvəl bağbandan və gözətçidən sənədlərini 1-2 günlüyə vermələri istənilib. Onlar da bunun hansısa prosedur üçün lazım olduğunu zənn edib etiraz bildirmədən veriblər. Həmin adamların hüquq-mühafizə orqanlarına ifadə verdikləri deyilir.

Mənbə bildirir ki, onlarla bu cür zərərçəkən şəxslər var. Bu adamların böyük əksəriyyətinin Cahangir Hacıyevin ofisində və malikanələrində işləyən sadə insanlar olduğu deyilir. Qaynağımız iddia edir ki, onlar üzləşdikləri vəziyyətlə bağlı polisə və prokurorluq orqanlarına müraciət ediblər. Ən dəhşətlisi budur ki, C.Hacıyevin dələduzluğunun qurbanı olmuş bu sadə, kasıb insanlar dərdlərini kimsəyə anlada bilmirlər. Yüz minlərlə, milyonlarla kredit borcu onların ayaqlarında qalıb.

❑ **İlkin Muradov, Aydın Abbas**

# Sevil Əliyeva qəfildən sahibi olduğu "Space" kanalına gəldi

### İllər sonra sahibi olduğu kanala ziyarətin arxasında hansı məqamlar dayanır? Sabiq prezidentin qızı: "Heydər Əliyevin iqamətgahında qalıram..."





**Eks-prezident Heydər Əliyevin qızı, ölkə başçısı İlham Əliyevin bacısı Sevil Əiyeva Bakıdadır. Sentyabrın 4-də Sevil Əliyeva sahibi olduğu "Space" telekanalına gəlib. Musavat.com xəbər verir ki, S.Əliyevanın kanala gəlişi axşam saatlarına təsadüf edib.**

Qəflətən redaksiyalara təmizlik və yır-yığış edilməsi ilə bağlı göstəriş verilib. Yarım saat ərzində xadimələr redaksiyanı yığışdırıblar və Sevil Əliyeva işçilərlə görüşüb.

Əldə etdiyimiz məlumata görə, S.Əliyeva sonuncu dəfə kanalda 2007-ci ildə olub. Heyətlə görüşü, onların işi ilə maraqlanması, hər biri ilə söhbət etməsi həmin vaxt da indiki kimi baş tutub. Məlumatda bildirilir ki, 8 il bundan əvvəl də S.Əliyeva kanala iki oğlu ilə birgə gəlmişdi. Bu dəfə də onu kanala gəlişində oğulları müşayiət edib. İşçilərlə tanış olub, onların işləri ilə maraqlanandan sonra S.Əliyeva telekanalın prezidenti Vaqif Mustafayevlə yarım saatlıq görüş keçirib, ondan sonra kanalı tərk edib.

İşçilər S.Əliyeva ilə şəkil çəkdirmək istəsələr də, prezidentin bacısı "daha sonra" deyərək, mədəni şəkildə bundan imtina edib.

Bu arada müğənni Elariz S.Əliyeva ilə fotosunu sosial şəbəkədə paylaşıb. Sənətçi şəkili çəkilişdə olarkən çəkdirdiyini qeyd edib: "Sevil xanım Əliyeva və mən Elariz Məmmədoğlu "Space" telekanalında".

Elariz Məmmədoğlu anspress-ə açıqlamasında fotonun sentyabrın 4-də çəkildiyini bildirib: "Aşıq Samirənin ad günü çəkilirdi. Pavilyonda 20-yə yaxın müğənni vardı. Bir də gördük Sevil xanım Əliyeva və Vaqif Mustafayev gəlir. Bizimlə söhbət etdilər, çəkilişlə maraqlandılar. Sevil xanım hətta "Elariz, siz cavanlaşmısız" deyərək mənə kompliment də etdi. Bu görüş hamımıza çox gözəl təsir bağışladı, heç vaxt bu görüşün təəssüratlarını unutmayacam. Çəkilişdə iştirak edən müğənnilər Sevil xanımla şəkil çəkdirdi. Yəni sosial şəbəkələrdə paylaşdığım foto kollektiv şəkildən kəsilmiş hissədir".

İlkin ehtimallara görə, son vaxtlar Space kanalına qarşı hücumlar, hətta MTRŞ səviyyəsində qınaq, verilişləri ilə bağlı tənqidi mövqelərin çoxalması onun təklənməsi təəssüratını yaradırdı. S.Əliyeva isə kanala gələrək, həm "gövdə göstərisi" edib, həm də seçkiöncəsi rəhbərliyə yeni göstəriş və strategiyalarını verib. Yaxın günlərdə yeni qərarlarda bu strategiyaların nədən ibarət olduğu özünü göstərəcək.

"Çoxdan idi valideynlərimin məzarını ziyarət etmirdim. Yeni Bakının gözəlliklərini görməyi də çox istəyirdim. Biz hazırda atamın bir vaxtlar yaşadığı iqamətgahda qalırıq. O, bizi həmişə aşağıda, qapının qarşısında qarşılayardı. Həmin anlar həmişə gözümün önündədir, unutmamışam. Bu ev bizə atamı xatırladır. O, bizi sonuncu dəfə də buradan yola salmışdı", - deyə Sevil Əliyeva virtualaz.org saytına qısa açıqlamasında bildirib.

Sevil xanım Bakıya övladları ilə birlikdə gəldiyini deyib: "Burada övladlarımla bir yerdəyəm. Bulvarı gəzdik. Zooparka getdik. Şəhəri gəzdik. Həddən artıq çoxlu fotolar çəkmişəm. Yeri gəlmişkən, şəhərdə xeyli adam məni tanıyır və onlar da şəkil çəkdirməyi xahiş edirlər".

Sevil Əliyevanın sözlərinə görə, o, Bakıya azad bir insan kimi bir neçə günlüyə gəlib.

Xatırladaq ki, S.Əliyeva son illər övladları ilə birlikdə Londonda yaşayır.

❑ **Musavat.com**

# Xanım siyasətçilər Leyla Yunus və Xədicə İsmayıldan danışdılar

## ABŞ Dövlət Departamentinin məlum mövqeyi birmənalı qarşılanmayıb

**Hüquq müdafiəçisi Leyla Yunus və araşdırmaçı jurnalist Xədicə İsmayıla oxunan hökmün üzərindən günlər keçməsinə baxmayaraq, ölkə gündəminin əsas məsələlərindən biri də budur. Heç şübhəsiz ki, buna səbəb həm də hər iki tanınmış simanın qadın olmasıdır.**

Xüsusilə, ABŞ Dövlət Departamentinin dünya ölkələrinin həbsxanalarında olan siyasi məhbus qadınlardan ibarət siyahı hazırlaması, onların azadlığa buraxılması üçün kampaniya başlatması və ən əsası, siyahıya L.Yunus, Xədicə İsmayılı da əlavə etməsi məsələni yenidən aktuallaşdırdı.

Dövlət Departamenti təcili surətdə siyahıda olan qadınların azadlığa buraxılmasını tələb edib. Bütün bunlardan sonra çoxları hesab edir ki, bu kampaniya hər iki qadın məhbusumuzun azadlığa çıxması üçün yardımçı ola bilər. Ölkəmizin siyasətçi xanımlarının L.Yunus və X.İsmayıla oxunan hökmə və Departamentin məlum bəyanatına mövqelərini aldıq.

"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı hesab edir ki, məhkəmə qərarlarını müzakirə etmək absurddur: "Əgər bir insanın hansısa formada cinayəti varsa, istintaq həmin cinayəti sübuta yetirirsə, məhkəmə də hökm çıxarıbsa, düşünürəm ki, bunu müzakirə etməyin özü absurddur. Həbsə düşən insanların cinsi mənsubiyyətindən çıxış etmək doğru deyil. Əgər bir cinayət faktı aşkar olunubsa, onun qadın və ya kişi olmasının məsələyə heç bir dəxli yoxdur. Şəxsi mövqeyimə gəlincə, heç kəsin həbsxanada olmasını istəmirəm. Amma yenə deyirəm ki, ortada cinayət faktoru varsa, artıq bunu müzakirə etmək qətiyyən doğru deyil. Bu, məsələnin bir tərəfidir".

A.Camalqızı ABŞ Dövlət Departamentinin bəyanatını sərt şəkildə tənqid etdi: "Bəyanat kifayət qədər qərəzlidir. Burada obyektivlikdən söhbət gedə bilməz. Bu günə qədər Azərbaycanın bir dövlət olaraq, üzləşdiyi ağır situasiyalar mövcuddur. Xüsusilə, bir milyondan artıq məcburi köçkün var. Dağlıq Qarabağ torpaqları işğal olunan zaman insanların başına olmazın müsibətlər gətirilib. Erməni silahlıları tərəfindən əsir götürülən, ağır işgəncələrə məruz qalan, namusuna təcavüz edilən qadınlar da qadındır. Amma çox təəssüf edirəm ki, bu günədək Departament hər hansı bir qətnaməsində, insan haqları ilə bağlı sənədində bunları vurğulamayıb. Azərbaycanın öz ərazisində qadınlarımız işgəncələrə, təcavüzə məruz qalıblar, onların haqları pozulub, gözləri qarşısında doğmaları, körpə uşaqları qətlə yetirilib. Bütün bunları məlum bəyanatları verən təşkilat və şəxslər görməzlikdən gəlirlər. Ancaq Azərbaycan hakimiyyətinə hansısa məsələ ilə bağlı təzyiq göstərmək üçün Leyla Yunus və Xədicə İsmayılın həbsdə olmasını qabardırlar. Şübhə etmirəm ki, adlarını çəkdiyimiz həbsdəki qadınlar ABŞ-ın heç vecinə deyil. Leyla Yunus və Xədicə İsmayıl Amerikanın xarici siyasətində neçə yüzmininci yerdədirlər. Azərbaycan hakimiyyətinə təzyiq üçün bu məsələni qabardırlar. Çox absurddur və təqdir olunacaq addım deyil".


Xədicə İsmayıl


Leyla Yunus

Müsavat Məclisinin sədri Nüşabə Sadıxlı verilən cəzaların ağır olmasından şikayətləndi: "Azərbaycan xalqının mentaliteti var. Qadına ana obrazı kimi hörmətlə yanaşılır. Ədalət, humanizm baxımından xanımlara verilən cəza çox ağırdır. Düşünürəm ki, hakimiyyət münasibətini dəyişməlidir. Onlar azadlığı haqq edirlər. İqtidarı qərarlarını dəyişməyə çağırıram. O qadınların heç biri verilən hökmləri haqq etmirlər. Bunu cəmiyyətimiz üçün bir həqarət kimi qəbul edirəm. Qədimdə bir qadının kələğayısını ortaya atmaqla müharibələr dayanırdı. Amma indi qadına olan münasibət utancvericidir".

"125-lər" Siyasi Klubunun sədri İlhamiyyə Rza "qadın məhbus" ifadəsinin yersiz olduğunu bildirdi: "Qanun qarşısında hamı bərabər olmalıdır - əlbəttə ki, qanunun aliliyi təmin edilərsə. Həm də inanmıram ki, Leyla Yunus və Xədicə İsmayıl belə yanaşmanı özləri də qəbul etsinlər. Məsələnin mahiyyətinə gəlincə, ABŞ Dövlət Departamenti, yaxud digər beynəlxalq təşkilatların müdaxiləleri gördüyünüz kimi, indiyədək heç bir nəticə verməyib. BMT-nin ABŞ-dakı nümayəndəsi Samanta Pauer həbsdə olan qadınlar haqda özünün Twitter səhifəsində "Biz sizi unutmadıq, sizin azadlığa buraxılmanız üçün hökumətlərinizə təzyiqləri davam etdirəcəyik" sözlərini yazıb. Zənnimcə, Azərbaycan hökuməti təzyiq ritorikasını qəbul etmir. Bunun dəfələrlə şahidi olmuşuq. Ona görə də, böyük ümidlər bəsləmək olmaz və başqa metodlar axtarmaq lazımdır. Ümumiyyətlə isə, hesab edirəm ki, problem daxildə həll olunmalıdır. Hakimiyyət və cəmiyyət arasında dialoq bərpa edilməlidir. Vətəndaş cəmiyyəti fəallarına hökumətlə opponentlik imkanları genişləndirilməlidir. Sivil mübarizə metodlarına qarşı aqressiv yanaşma sərgilənməməlidir".

Ümid Partiyasının Ali Məclisinin sədr müavini Tamilla Qulami qadınların həbsdə olmasının üzücü olduğunu söylədi: "Qadınların həbsdə olması üzücüdür. Xanımdısa, həbs olunmamalıdır düşüncəsi ilə danışmıram. Hər kəs qanun qarşısında bərabərdir. Qərbin nə dediyini yox, müstəqil ölkəmizin qanunlarını əsas götürməliyik. Düşünürəm ki, Qərb nə qədər tələblər irəli sürsə, hakimiyyət o qədər direniş göstərəcək. Nəticədə siyasi məhbuslarımızın vəziyyəti ağırlaşacaq. Vəziyyət əvvəlki kimi deyil. Aqressiv olma demək olar ki, aradan qalxıb. Ümid edirəm ki, onlar tezliklə azad olunacaqlar. İlin sonuna çox ümid edirəm".

❑ **Cavanşir ABBASLI**

# "Azərbaycana qarşı ciddi bir kampaniya başlayıb"



## ABŞ Dövlət Departamentinin "qadın məhbus" siyahısı nə vəd edir? **Qabil Hüseynli:** "Qərbin seçkilərlə bağlı mövqeyi yetərincə sərt olacaq..."

**Son aylarda Qərbin Azərbaycan hökumətinə təzyiqlərinin növbəti dalğası müşahidə olunmaqdadır. Xüsusilə, Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus və araşdırmaçı jurnalist Xədicə İsmayıla oxunan məlum məhkəmə hökmlərindən sonra bu hal daha da gücləinib. Bu şəxslərin azad olunması üçün bəyanat və çağırışlar əsas təzyiq vasitəsi kimi seçilib.**

ABŞ Dövlət Departamentinin dünyadakı 20 siyasi qadın məhbusdan ibarət siyahı hazırlaması, həmin siyahıya L.Yunus və X.İsmayılın adını salması və siyahıda adı keçən məhbusların dərhal azadlığa buraxılmaları üçün çağırışlar etməsini yeni bir təzyiq mərhələsi adlandırmaq olar.

Ekspertlər hesab edirlər ki, bütün bunlar noyabrın 1-də keçiriləcək parlament seçkiləri öncəsi Azərbaycan hakimiyyətinə edilən təzyiq vasitələrindən biridir. Bu cür çağırış, bəyanatların müsbət mənada heç nə vəd etmədiyini düşünənlər az deyil. Belə davam edərsə, seçkilər öncəsi və sonrakı zamanlarda ölkə iqtidarının zərbə alacağını ehtimal etmək də mümkündür.

Politoloq Qabil Hüseynli ABŞ-ın bəzi məsələlərdə mövqeyinin anlaşılmaz olduğu qənaətindədir: "Çox mürəkkəb bir məsələdir. ABŞ-ın bir-birinin ardınca Azərbaycana təzyiqlər etməsi, qadın məhbusların azadlığa buraxılması üçün cəhdlər göstərməsi, bundan sonra təzyiqlərini davam etdirəcəyini bildirməsi onu göstərir ki, ciddi bir kampaniya başlamaqdadır. Kampaniya Azərbaycanın imicinə, xüsusilə, Dağlıq Qarabağ probleminin həllinə ciddi zərbə vura bilər. Amerika bu məsələyə insan haqları kontekstindən yanaşdığını iddia edərək, özünün strateji maraqlarını da ortaya atır. Bu insan haqları kontekstində kiçik dövlətlərə özünün psixoloji təzyiqlərini göstərməyə çalışır. Zənnimcə, Azərbaycan hökuməti bu məsələdə gərginliyin artmasına imkan verməməlidir. Məsələnin həlli istiqamətində optimal variant tapmaq zəruri görünür. Qadın məhbusların azadlığa buraxılması, yaxud onlara verilmiş həbs müddətinin azaldılması bu variantlardan biri ola bilər. Azərbaycan üçün elə bir ağır iş deyil. Qərb dövlətləri, xüsusilə, ABŞ iki qadın məhbusun həbsə atılmasından ciddi narahatçılıq keçirir. Bunu aradan qaldırmaq üçün təzyiqlərə əl atır. Güman edirəm ki, Azərbaycan ABŞ-la danışıqlar aparmalı və bu məsələnin optimal həlli yollarını tapmalıdır".


Qabil Hüseynli

Politoloq seçkilər öncəsi bu cür çağırışların Azərbaycan üçün olan təhlükələrindən də söz açdı: "Oxunan hökmlər seçki öncəsi, yaxud başqa vaxt olsaydı da, reaksiyalar oxşar olacaqdı. Seçkini də bunun gözünə qataraq, daha ciddi cəhdlər etməyə çalışırlar. Seçkilərin nəticələrini əvvəlcədən görmüş kimi hərəkət edirlər. Hətta indidən seçkilərlə bağlı bəyanatlar verirlər. Mühitin qeyri-demokratikliyi, yaxud siyasi mübarizə üçün normal şəraitin yaradılmaması ilə bağlı fikirlər irəli sürürlər. Bunun üçün hələ də onların əlində konkret faktlar yoxdur. Belə görünür ki, seçkilərlə bağlı Qərbin mövqeyi anlaşılmaz olsa da, kifayət qədər sərt olacaq".

Q.Hüseynli təzyiqlərin verə biləcəyi nəticələrdən də danışdı: "Qərb Azərbaycanla diktə ilə danışır. Bərabərhüquqlu dövlət kimi danışmır. Bu da haqlı olaraq, Azərbaycan rəhbərliyini qəzəbləndirir. Mənə elə gəlir ki, Azərbaycanın dilini tapmaq lazımdır. Əgər Qərb burada nəticəyə nail olmaq istəyirsə, Azərbaycanla bərabərhüquqlu dövlət kimi danışmalı və diktə mövqeyindən əl çəkməlidir. Doğurdan da, Leyla Yunus və Xədicə İsmayılın azad olunmalarını istəyirlərsə, Azərbaycana bəyanatları dayandırmalıdırlar. Səlahiyyətli bir şəxs ölkə rəhbərliyi ilə danışıqlara başlamalıdır. Nəticə əldə etmək üçün diktə bəyanatlarının rolu olmur. Əksinə, vəziyyət daha da gərginləşir. Öz mövqeyimi deyə bilərəm ki, Azərbaycanın siyasi rəhbərliyi ilə dil tapmaq mümkündür. Bunun yollarını tapmaq diplomatiyanın üzərinə düşür".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 197 (6225) 7 sentyabr 2015

**Ötən həftə "Trend" İnformasiya Agentliyi 20 illiyini qeyd etdi. Azərbaycanda ən böyük informasiya agentliklərindən olan "Trend" 1995-ci il sentyabrın 1-də fəaliyyətə başlayıb. Hazırda bir neçə dildə xəbər redaksiyası olan agentlik böyük bir xəbər istehsalçısıdır. "Yeni Müsavat" "Trend"in məlumatlarına istinad etsə də, hazırda qəzetimizi bu agentliklə bağlayan agentliyin direktor müavini, siyasi şərhçi Arzu Nağıyevdir. Vaxtaşırı olaraq əməkdaşlarımız A.Nağıyevlə danışır, hərbi, təhlükəsizlik və geolitika mövzularında ekspert şərhlərini alır.**



# "Trend"də işlədiyim 4 il sanki 10 ildir"

## Arzu Nağıyev: "Media bazarında güclü rəqabət var"

Həftəiçi imkan olmasa da, şənbə günü vaxt edib "Trend"dəki həmkarlarımızı təbrik etməyə getdik. Yubiley təbrikləşməsinə gedəndə redaksiyada ilk qarşılaşdığımız Arzu bəy oldu. Biz agentliyə gedəndə agentlik əməkdaşları iş başında idi. Azərbaycan dili, rus və ərəb-fars redaksiyasının əməkdaşları redaksiyada çalışırdılar.

Redaksiyanı qısa ekskursiyadan sonra ümumi işə mane olmadan Arzu Nağıyevlə "Trend" və özünün fəaliyyəti, medianın durumu ilə bağlı sorğu-sual etdik.

- "Trend" hazırda 100-ə yaxın əməkdaşı olan beynəlxalq xəbər agentliyidir. Bizim xəbərləri hazırlayıb dərc etməklə yanaşı, regiona və dünyaya yayırıq. Azərbaycan, rus, ingilis, ərəb-fars redaksiyamız var. İnşallah, bu yaxınlarda ayrıca türk redaksiyamız da olacaq. Bundan başqa, analitik qrupumuz var ki, təhlillər hazırlayır. "Trend-life" adlanan qrupumuz var. Əsas vəzifəmiz Azərbaycanda və regionda baş verənləri xəbər kimi hazırlamaq, təhlil edib qərəzsiz obyektiv şəkildə ortaya qoymaqdır. Bundan başqa, artıq bizim əməkdaşların yazıları "Bloomberg", "Washington Post", "Financial Times" və digər nüfuzlu KİV-lərdə dərc olunur. Eyni zamanda, sadaladığım və daha bir neçə agentliklər var ki, öz məlumatlarında "Trend"in materiallarından istifadə edir. Bizə istinad edirlər. Yəni biz dünya bazarında öz çəkimizi göstərməyə çalışırıq və buna müəyyən qədər nail olmuşuq. Bir sıra nüfuzlu agentlik və qəzetlərlə əməkdaşlıq müqavilələrimiz var.

***- Hazırda Azərbaycanda bir neçə agentliklər var, eyni zamanda yüzlərlə saytlar fəaliyyət göstərir. Rəqabət mühitini necə görürsünüz?***

- Təbii ki, güclü rəqabət var və media bazarında yer tutmaq və onu qoruyub saxlamaq asan deyil. Ancaq indi daha ciddi problem media portallarının agentlik adına iddia etməsidir. Agentlik öz məlumatlarını, yəni əməkdaşların əldə edib yazdığı xəbərləri yayır. Ancaq portallar daha rahat üsulla işləyir. Bu saytların bir çoxu agentliklərin məlumatlarını götürərək öz adlarından yayırlar, yaxud da cüzi düzəliş edərək "özününküləşdirirlər". Təbii ki, bu, rəqabət deyil, rəqabət aparmaq, bazarda öz yerini tutmaq üçün ilk növbədə böyük peşəkarlıq lazımdır. Düşünürəm ki, bu gün "Trend"də peşəkar komanda yaranıb. Bunlar öz işlərini yaxşı bilir və hər bir əməkdaş daim öz üzərində çalışırlar. Məsələn, bu gün "Trend"də çalışan jurnalistlərin böyük əksəriyyəti bir neçə dildə danışır və yaza bilir. Müasir mediada peşəkarlığın ən mühüm tələblərindən biri də informasiyanı öz dilində əldə edib hazırlamaqdır.

***- Hazırkı dünyada hər bir agentliyin, media orqanının bazarda üstünlüyü əldə etdiyi özəl, ciddi xəbərlərlə ölçülür. Bizim bildiyimiz qədər "Trend"in rəsmi mənbələrə çıxış imkanları yaxşıdır, rəsmi dövlət orqanları ilə əlaqələri mövcuddur. Bəs özəl mənbələrlə necə, işləyirsinizmi? "Trend"in özəl mənbələri varmı?***

- Belə bir qayda var ki, kimin məlumatı çoxdursa, o irəlidədir, üstün mövqedədir. Əlbəttə, "Trend" rəsmi mənbələrlə bərabər, özəl mənbələrlə də işləyir. Bizim regionlarda, xarici ölkələrdə müxbir postlarımız var. Ordan da məlumatlar gəlir, bir də jurnalistlərin şəxsi əlaqələri vasitəsilə əldə etdiyi məlumatlar olur ki, onu bəzən xəbərə çevirirk. Təbii ki, şəxsi əlaqələr vasitəsilə əldə olunan məlumatları hər zaman xəbər etmirik, əvvəlcə bu məlumatlar araşdırılır, dəqiqləşdirilir, hansı istiqamətdən daha uyğundursa, o cür oxuculara çatdırılır.

***- Siz başqa sahədən mətbuata gəlmisiniz. Mediaya gəlişinizi ciddi dəyişiklik saymaq olarmı?***

- Mən Moskva İdarəetmə İnstitutunu bitirmişəm. Tikinti və şəhər təsərrüfatının idarə edilməsinin təşkili ixtisası. Bu, mənim, necə deyərlər, mülki təhsilim olub. Mühəndis-iqtisadçıyam, tikinti sahəsində də çalışmışam. Daha sonra bir müddət komsomol orqanlarında işləmişəm və 1989-cu ildə milli təhlükəsizlik sisteminə qəbul olmuşam. SSRİ DTK ali kurslarını bitirmişəm, ondan sonra isə bura gələnə qədər, yəni 2011-ci ilədək Milli Təhlükəsizlik Nazirliyi sistemində işləmişəm.

***- Bəs, mətbuata gəlişiniz necə oldu? Niyə məhz media?***

- Əslində mənim yazılarım daha əvvəldən olub. 2000-ci ildən Yazıçılar Birliyinin üzvü olmuşam. Bundan başqa analitik məqalələr, təhlillər hazırlamışam. Yəni işlədiyim dövrdə də yazı işi ilə əlaqəli olmuşam, maraqlanmışam, yazılarım olub. Bura gələnə qədər mənim iki kitabım çap olunub. MTN-də sonuncu işim Analitik İdarənin rəisi vəzifəsi olub. Yəni orda da analitik istiqamətdə işləmişəm, təhlillərim, analizlərim olub. Bu mənada bura gəlməyim təsadüfi olmayıb, bu istiqamətə marağım olub. 2011-ci ildə təqaüdə çıxdıqdan az sonra məni bura dəvət etdilər.

***- İşə başlamaq, "Trend" kimi böyük bir agentlikdə işləmək çətin olmadı ki?***

- Əlbəttə, asan olmadı. Amma qarşıma məqsəd qoymuşdum ki, bu sahəyə gəlmişəmsə, işimin öhdəsindən gələcəyəm. Təxminən 1 ilə yaxın regional problemlərin öyrənilməsi, analitik yazıların təhlilini aparmaqla öz üzərimdə işlədim. Bir ildən sonra artıq analitik kimi fəaliyyətə başlamışam. Artıq 4 ilə yaxındır ki, çalışıram, "Trend"dən də mənə belə bir etimad göstərilib, 2011-ci ilin dekabrından baş direktorun müavini kimi fəaliyyət göstərirəm.

***- Siz mediada nisbətən təzə hesab olunursunuz, 4 il elə də böyük rəqəm deyil. Həm də paralel olaraq yerli mətbuatda, telekanallarda ekspert kimi çıxış edirsiniz. Həm bir agentliyə rəhbərlik etmək, həm də mətbuatda davamlı ekspert kimi çıxış etmək çətin deyil ki?***



**"Əməkdaşların yazıları "Bloomberg", "Washington Post", "Financial Times" və digər nüfuzlu KİV-lərdə dərc olunur"**

- Mənim düşüncəmə görə, xoşbəxt o insandır ki, işdən evə, evdən də işə tələssin. Mənim keçmiş işim elə idi ki, evdə az olurdum. Bugünkü işim bir qədər fərqlidir, amma düşünürəm ki, bu gün sevdiyim bir işlə məşğulam. Varlığımı bu işə həsr etmişəm, bu, mənə zövq verir. Bildiyiniz kimi, analizlər, şərhlər beynin məhsuludur. Amma yaradıcılıq, yalnız təfəkkürün məhsulu olmur. Allahın verdiyi istedad da var. Yazıçıların, şairlərin yaradıcılığı Allah vergisidir. Ancaq insanda həm Allah vergisi olan istedad və həm də yaradıcılıq həvəsi olanda iş çox sevimli iş olur. Doğrudur, mən mediada o qədər də uzun müddət işləməmişəm, 4 il, amma mənə elə gəlir ki, bu müddət 10 ildir. Eyni zamanda mənim yaşımda olan insanlar çox mürəkkəb bir dövrdən keçdi. Bizim keçdiyimiz prosesləri bəlkə də 80 yaşında insanlar yaşaya bilməyib. Son 20 ildə bizim fəal həyatımız sanki bir təlatümlü dəniz olub. Ona görə də mən təcrübəmdən, mütaliə ilə əldə etdiyi biliklərim və eyni zamanda hər gün yayılan çoxlu sayda informasiyadan maksimum dərəcədə faydalanım.

***- Yeri gəlmişkən, bir sıra əcnəbi dillərdə kəşfiyyat orqanı xəbər toplama, xəbər alma orqanı kimi tərcümə olunur. Bu mənada keçmiş işinizlə, hazırkı iş arasında fərq nə qədərdir? Çox ciddi fərqlər varmı?***

- Əsas məsələ xəbəri necə realizə etməkdir. Açıq mənbələr var, qapalı mənbələr var. Keçim işimlə indikini müqayisə etsəm, o zaman daha çox qapalı mənbələrlə işləyirdik. Və sonunda bu məlumatları realizə etmək üçün başqa metodlardan istifadə olunub. Bu mənada indiki işim daha rahatdır, açıq mənbədən alınan məlumatı realizə etmək asandır. Ancaq ümumi müqayisədə oxşar tərəflər çoxdur. Amma təbii ki, jurnalistika daha rahat işdir, orda məxfiliyin qorumaq çox böyük bir əhəmiyyət daşıyır. Jurnalistikada isə nisbətən daha rahatdır.

***- İndi Azərbaycan mediasına münasibət birmənalı deyil. Tənqidlər çoxdur, xüsusən də hökumət qurumları yerli media ilə əməkdaşlıq etməkdən qaçırlar. Siz uzun illər dövlət qurumlarında çalışmış və hazırda böyük bir media orqanına rəhbərlik edən şəxs kimi medianı necə qiymətləndirirsiniz?***

- Hazırda istər media olsun, istərsə də digər sahələrdə müasir texnologiyalar o qədər sürətlə inkişaf edir ki, bu inkişafla ayaqlaşmaq üçün xeyli dərəcədə sürətli hərəkət etmək lazımdır. Müasir texnika və texnologiyaları bilmək, onların imkanlarından istifadə etmək lazımdır. Bunun üçünsə ilk növbədə kadr potensialı birinci şərtdir. Formalaşmış kadrlar hesabına hazırkı dünya ilə ayaqlaşmaq olar. Yalnız bunlar yerində olduqdan sonra jurnalistlər və media haqqında nəsə demək olar. Təbii ki, indi informasiya mənbələri də çoxalıb. Artıq sosial şəbəkələr əsas xəbər mənbəyi kimi çıxış edir və bazarı ələ keçirib. Belə bir şəraitdə jurnalistikanın yeganə gücü peşəkarlığındadır. Daha peşəkar, ciddi, yoxlanılmış xəbərlər, sanballı analizlər medianı gücləndirir. Buna görə də mediada əsas istiqamət peşəkarlıqdır. Müasir şərtlər jurnalistlərin daha bilikli, savadlı olması, ölkəni, regionu tanıması, çox dil bilməsi kimi özəlliklər tələb edir. Bir də düşünürəm ki, mediada ixtisaslaşma olmalıdır. Sahələr üzrə ixtisaslaşmış jurnalistlər yetişməlidir. Bu, olarsa media çox inkişaf edəcək. Kəşfiyyatda məşhur deyim var: Sənə aid olmayan şeylərdən danışma. Yəni bir mənada ixtisaslaşma, dərin bildiyin mövzulardan yazmaq, danışmaq mühüm şərtdir.

Lakin onu da deyim ki, çətinliklərə baxmayaraq artıq yerli mediada - həm Azərbaycan dili, həm də rusdilli və ingilis dilli mediada - artıq yetişmiş peşəkar kadrlar var. Təbii ki, söhbət xalqımızın nümayəndələrindən gedir.

Azərbaycanda həmişə dövlət mətbuata dəstək verib. Ancaq son zamanlar bu dəstək daha qabarıq hiss olunur. Dövlət mətbuatın fəaliyyətini stimullaşdırmaq, medianın inkişafı barədə layihələr həyata keçirir. KİV DF-nin yaradılması və bir çox layihələri həyata keçirməsi buna nümunə sayıla bilər. Mediada hakimiyyət və ya müxalifət mətbuatı kimi bölgülər yoxdur, bütün media orqanları dövlət dəstəyi ala bilir.

❑ Kənan RÖVŞƏNOĞLU



# Şöşübalanın baş naziri

Zamin HACI
zaminhaci@gmail.com

**Qəzetin müxbiri baş nazirin mətbuat katibinə deyir ki, mən baş nazirdən intervü almaq istəyirəm. Yetərincə normal bir istəkdir. Bütün dünyada baş nazirlər intervü verirlər. Amma bizim baş nazir nəinki dinozavrlarla yaşıddır, üstəlik, intervü verməyi, danışmağı bacarmır. Bəlkə də o, hələ dil açmayıbdır. Yəni, Homo erectus olmasına şübhə yoxdur, lakin danışa bilmir.**

Ancaq gəlin görək baş nazirin mətbuat katibi, keçmiş aktyor, uca millətimizin qan yaddaşında daha çox "Tütək səsi" kinosunda tualetdə oturan Şöşüyə "Şöşübala, nə oldu, qurtarmadın?" deməsi ilə qalan Akif müəllim baş nazirin intervü verməkdən imtinasını necə əsaslandırmışdır. Yaxşı oxuyun, kəsib saxlayın, gələcək nəsillər bizim necə karikatur dövlətdə yaşadığımızı görsünlər: "Əgər o, prezidentin tapşırığını icra edirsə, öz adından nələr desin? O, dövlətin işini aparan adamdır. Dövlətin ümumi iqtisadi siyasəti var, bu siyasət də prezidentin nəzarəti ilə həyata keçirilir. Baş nazir də sadəcə icra edir... Özün bilirsən, çox ziyalı bir adamdır, dərin ziyalı bir nəsildəndir, özü də Azərbaycan dövləti və hökuməti üçün ömrü boyu çalışan adamdır". Sitatın sonu. Ta bu arqumentə qarşı nə deyəsən? Adam qızıl-qırmızıca etiraf edir ki, Azərbaycanda avtoritar rejimdir, yalnız bir adam danışa bilər (Bu haqda az sonra).

Üstəlik, Artur müəllimin ziyalı və ya qeyri-ziyalı olmasının onun baş nazir vəzifəsini tutmasına nə dəxli var? Ziyalıdırsa, getsin xalq artisti adı alsın. Şeir yazsın. Anar müəllim kimi qəlyan püskürtsün. Fikrət Qoca kimi meyxana desin. Nə bilim, Habil Əliyev olub kaman sürtsün. Bizim ölkədə ziyalıların məşğuliyyət sahələri konkret ayrılmışdır. Hətta müxalifətdə də ziyalı işləmək olur, misal üçün, Eldəniz müəllim Quliyev Ziyalılar Birliyi yaradıbdır, işığı kosmosun dərinliyinə çatır.

Sözümün canı odur ki, bizə baş nazir lazımdır. Monopoliya ilə mübarizə aparsın, iş yerləri açılmasına, məhsul ucuzluğuna nail olsun, ən azı benzini ucuz eləsin. Benzin cəhənnəm, bananı Gürcüstan qiymətinə ala bilək. Bu isə, sən demə, ziyalı imiş... Püf. Sənin ziyalılığına Şöşübala gəlsin...

Avtoritarlıq məsələsinə qayıdaq. YAP-ın deputatlığa namizədlər siyahısı hələ açıqlanmayıb, baxmayaraq seçkiyə artıq 1 həftəyə yaxındır start verilib. Üstəlik, jurnalistlər hansı yapist deputatdan namizəd olub-olmayacağını soruşurlarsa belə standart, şablon cavab alınır: "Bunu biz bilmirik, partiya nə qərar versə elə olacaq, biz partiyanın əsgəriyik" və sairə.

Halbuki, əgər bu YAP deyilən qurum gerçəkdən siyasi partiya olsaydı yerlərdə iclaslar keçirilməli, namizədlər irəli sürülməli idi. Müzakirələr cəmiyyətə açıq olmalı idi. İndiki halda isə açıq görünür ki, YAP-ın deputat siyahısı Prezident Administrasiyasında, çox dar çərçivədə hazırlanır. Bəlkə də kimin deputat olmasını yalnız prezident müəyyən edir, ikinci bir şəxsin siyahıdan xəbəri yoxdur. Avtoritarizm budur.

Ən gülməlisi odur ki, "partiya qərar verəcək" deyən deputatlardan bəziləri YAP-ın guya ali orqanı olan Siyasi Şuranın üzvləri idilər. Hətta bir nəfər YAP sədrinin müavini idi. "Qız evində toydur, oğlan evinin xəbəri yoxdur" məsəlindəki kimi. Ta siz o qurumun rəhbərliyində nə üçün oturmusunuz, əgər qurumun heç bir qərarından xəbəriniz yoxdursa?

Yazını isə Akif müəllimin bayaq söz açdığım intervüsündən çox gözəl bir sitatla bitirmək istərdim. Necə deyərlər, yanlış da bir naxışdır: "Burda işlədiyim 20 il ərzində Azərbaycan üçün, xüsusən aparılan danışıqlarda, Qarabağla bağlı məsələlərdə, Azərbaycanın iqtisadiyyatı, ordu quruculuğunun möhkəmlənməsində Artur müəllimin nə qədər xidmətinin olduğunu şəxsən mən deyə bilmərəm".

Guya Artur müəllimin xidmətinin ölçülməz dərəcədə böyük olmasına işarə vurur, amma özünüz görürsünüz necə alınıb.

Heç mən də deyə bilmirəm, Akif müəllim, fikir eləmə.

# "Moskvanın Bakı və İrəvan üçün yeni planı var..."

**Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Bakıya ötən həftə reallaşan səfəri ətrafında ən müxtəlif versiyalar və mülahizələr irəli sürülməkdə davam edir. Ola bilsin, Bakı görüşlərinin yekunu ilə bağlı heç bir rəsmi açıqlamanın olmaması, adicə brifinqin keçirilməməsi də bu yöndə ehtimallara yol açmaqdadır.**



# Rusiya 7 rayonu qaytarır, amma nəyi alır - blef, yoxsa...

## Prezidentlərin Nyu-York görüşünün baş tutmayacağı haqda xəbərin ardınca Qarabağ məsələsində Kremlin konstruktiv görünmək istəməsinin pərdəarxası; Sərkisyan Moskvaya təcili niyə çağırılıb...

Versiya və gümanların qayəsində isə "Sergey Lavrov paytaxtımıza nə üçün gəlmişdi və Putindən konkret hansı mesajı gətirmişdi" sualı durur. Bəzi yerli analitiklərə görə, səfər öncəliklə Qarabağ münaqişəsində, nəhayət, irəliləyişə nail olmaq və axır vaxtlar NATO-nun bölgədə güclənməyə başlamasından dolayı Moskva-Bakı münasibətlərini ən azı, indiki səviyyədə saxlamaq məramından qaynaqlanıb.

Bu versiyanı müdafiə edən politoloq Qabil Hüseynliyə görə, Rusiya ilə Azərbaycan arasında Qarabağla bağlı danışıqlar çoxdan gedir və bununla bağlı müsbət nəticələr də artıq var. Mətbuata açıqlamasında o deyib ki, Bakıda iki ölkə xarici işlər nazirləri səviyyəsində baş tutan görüşdə hər iki tərəf siyasi mesajlarını rəhbərliyin diqqətinə çatdırıb.

Sitat: "Lavrovun son səfəri göstərdi ki, Rusiya NATO-nun Qafqazda irəliləməsindən olduqca narahatdır. Düzdür, mətbuata açıq formada bildirilməsə də, çox güman ki, ikitərəfli görüşdə Dağlıq Qarabağ məsələsi ön planda olub. Səfər müddətində ermənilərin cəbhə xəttində fəallığının artması isə ona işarədir ki, İrəvan Lavrovun ziyarətindən narahatdır. Çünki Ermənistan yaxşı bilir ki, Lavrov Putinin tapşırığı ilə Bakıya gəlib. Fakt odur ki, Azərbaycan beynəlxalq siyasətin formalaşmasında yaxından iştirak edir və buna görə Moskva Bakı ilə hesablaşmaq məcburiyyəti qarşısında qalıb. Lavrov Bakıda Putinin fikirlərini Azərbaycan rəhbərliyinə, Bakı isə qarşı tərəfə Qarabağla bağlı mesajını göndərib. Rusiyanın 7 rayonun geri qaytarılması ilə bağlı razılığı var. Sadəcə, bunu reallaşdırmaq barədə hələ ki, son nəticəyə gəlinməyib. Bir sözlə, Rusiya Azərbaycanın şərtlərini yerinə yetirərsə, bu, Moskva ilə strateji əməkdaşlığın bütün qaydalarını yerinə yetirməyə yol aça bilər".

***

"Moskvanın Bakı və İrəvan üçün yeni planı var". Bunu isə Rusiyanın "Politrus" saytı yazıb. Saytın məqaləsində iddia edilir ki, Dağlıq Qarabağda hərbi gərginliyin qalmasında ABŞ maraqlıdır: "Çünki Rusiya, İran və Çinin maraq zonasında olan bu bölgənin daim "qaynar" olması ABŞ-ın hegemonluğuna xidmət edir. Lakin hazırkı vəziyyətdə müharibənin başlaması problem olaraq qalır. Nədən ki, Bakı və İrəvan savaş istəmir. Azərbaycan öz ərazi bütövlüyünün bərpasını tələb edir. Çünki məcburi köçkün və qaçqınlar öz evlərinə qayıtmaq istəyirlər. Ölkə rəhbərliyi də bu məsələdə qətiyyət göstərir".

Məqalədə ardınca bildirilir ki, Rusiya Azərbaycanı Xəzər regionunda və Avrasiya İttifaqında öz müttəfiqi kimi görmək arzusundadır: "Moskva bunu gizlətmir. İqtisadi nöqteyi-nəzərdən Azərbaycan Avrasiya İttifaqı üçün əlverişlidir. Amma artıq ittifaqda yer alan Ermənistan Azərbaycanın bu birliyə girişini əngəlləyir. Azərbaycan ərazisini nəzarətdə saxlayan bir ölkə ilə eyni ittifaqda yer almağın mümkünsüzlüyünü irəli çəkir".

Sayt ardından yazıb ki, Lavrovun Bakı səfərinin detalları yayılmasa da, fərz etmək mümkündür ki, Rusiya Qarabağ münaqişəsinin həlli üçün yeni plan təklif edir. "Həm də bu təklif indi yox, Vladimir Putinin I Avropa Oyunlarının açılış mərasimində iştirakı zamanı Bakıya təqdim olunub. Rusiya XİN rəhbəri isə planın detallarını müzakirə etmək üçün Bakıya gedib. Ermənistan prezidenti Serj Sarkisyanın sentyabrın 7-də nəzərdə tutulan Moskva səfərində də münaqişənin həlli üçün təklif olunan yeni plan müzakirə olunacaq", - deyə yazıda vurğulanır.

Portal münaqişənin həlli üçün iki təklifin ola biləcəyini qeyd edib: "Birincisi, Ermənistan Dağlıq Qarabağdakı qoşunlarını tamamilə çıxarır və ətraf 7 rayon Azərbaycana qaytarılır. Bakı bunu istəyir, amma İrəvan buna getməyəcək. Hətta üçüncü tərəfin məsələyə qarışması və böyük maliyyə hesabına torpaqların qaytarılması variantı olsa belə bu, mümkünsüz görünür. Çünki Qarabağdakı ermənilər bu torpaqların özlərinki olduğunu düşünürlər. İkinci variant Ermənistanın Laçından başqa digər işğal olunmuş rayonları qaytarması və Qarabağa dəhlizin təmin olunmasıdır. Köçkünlər qayıdacaq, Bakı da ərazidən çıxarılan ermənilərə kompensasiya ödəyəcək. Bu, mümkün variant kimi görünür və Azərbaycan tərəfi ermənilərə kompensasiyasını birbaşa deyil, Rusiya vasitəsilə verəcək. Əgər bu variant reallaşarsa, kompensasiya Rusiya tərəfindən Avrasiya İttifaqı çərçivəsində Ermənistana kredit kimi də verilə bilər".

***

Maraqlıdır ki, Sərkisyan Lavrovun Bakı səfərindən dərhal sonra Moskvaya çağırılıb. Məhz çağırılıb, çünki Ermənistan Rusiya üçün suveren dövlət deyil. Sabah o, Putinlə görüşəcək. Bəzi siyasi müşahidəçilər inanır ki, Səkisyanın səfəri həqiqətən də Azərbaycan və Rusiya tərəfləri arasında Bakıda Qarabağla bağlı aparılan fikir mübadiləsinin məntiqi nəticəsi kimi ortaya çıxıb. Güman olunur ki, düşmən ölkə başçısı Azərbaycan rəhbərliyinin Qarabağ mesajından xəbərdardır və o üzdən də onun Moskva səfəri ən əvvəl münaqişə ətrafındakı durumla bağlı Rusiya ilə satellit Ermənistan arasında "dəqiqləşdirmə aparmaq" hədəfi güdür.

***

Mövzuya dəxli olan daha bir əhəmiyyətli ştrix: artıq bəllidir ki, sentyabrın axırında Nyu-Yorkda ABŞ-ın təşəbbüskar olduğu Azərbaycan və Ermənistan prezidentlərinin görüşü baş tutmayacaq. İstisna deyil, Kreml fürsətdən yararlanmaq və özünü problemin əsas tənzimləyicisi rolunda göstərmək üçün hərəkətə keçib və müəyyən zondajlar həyata keçirir.

Hədəf də birinci o ola bilər ki, Kremlə hazırda Qarabağ məsələsində hamıdan çox konstruktiv görünmək olduqca vacibdir. Moskva habelə Azərbaycanda və Ermənistanda ictimai nəbzi yoxlamaq, bu iki Qafqaz ölkəsində özünün xeyli düşən nüfuzunu qaldırmaq, beləliklə də Bakı və İrəvanı bir az da çox öz orbitində saxlamaq istəyi güdür. Bu üzdən də "rəngarəng, dolğun və inandırıcı həll planları"nın dövriyyəyə buraxılması mümkündür.

Ancaq hər necə olmasa, bu günə sərt gerçəklik belədir ki, Ukraynaya dair "Normand dördlüyü" (Rusiya, Almaniya, Fransa, Ukrayna) səviyyəsində əldə olunan və boşa çıxan Minsk anlaşması kimi, Dağlıq Qarabağa dair Minsk Qrupunun işinin fiasko olmasında da Moskvanın həlledici rolu danılmazdır. Bunun əleyhinə ortalıqda hələ ki, yalnız güman və versiyalar dolaşır.

❑ **Analitik xidmət**

# İŞİD artıq postsovet ölkələrinin sərhədlərindədir - Azərbaycan da təhlükədə...

**İŞİD terror qruplaşması qaniçən fəaliyyətinə davam edir. İslam dininin geniş yayıldığı, bu vaxta qədər rəhbərə itaətsizliyin belə müşahidə olunmadığı Tacikistanda son günlər baş verənlər digər ölkələrin də terror təhlükəsindən sığortalanmadığını bir daha sübut etdi.**



Hadisələr artıq Rusiya prezidenti Vladimir Putini də narahat etməyə başlayıb. Putin Tacikistanda baş verənlərlə bağlı bu ayın 15-i Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının toplantısının çağırılacağını və məsələnin müzakirə ediləcəyini qeyd edib.

Ekspertlər hesab edirlər ki, İŞİD-in postsovet məkanı üçün də təhlükələr yarada biləcəyi istisna deyil. Putin də məhz bunu düşünərək, qabaqlayıcı tədbirlərə əl atır. İŞİD postsovet məkanına Orta Asiyadan nüfuz edərsə, Azərbaycan da təhlükənin ortasında qalacaq.

Narahatlıq doğuran bir məqam da odur ki, Azərbaycandan da Suriyaya gedərək İŞİD terror qruplaşmasına qoşulanlar az deyil.

Politoloq Elxan Şahinoğlu mövzu ilə bağlı qəzetimizə bildirib ki, İŞİD təhlükəsindən heç bir dövlət sığortalanmayıb: "Çünki bu terrorçuların sıralarında fərqli millətlərin nümayəndələri var. Onlar da zaman-zaman geri qayıdır, vətəndaşı olduqları ölkədə təxribat törədirlər. İŞİD-in Suriya və İraqda vəziyyəti ağırlaşarsa, onlar pərən-pərən düşəcəklər. Bu zaman İŞİD təhlükəsi ətraf dövlətlər üçün daha da artacaq".

Bəs Azərbaycan dövləti və cəmiyyəti İŞİD təhlükəsindən qorunmaq üçün hansı tədbirlər görməlidir?

Mövzu ilə bağlı "Yeni Müsavat"a Milli Məclisin Təhlükəsizlik və Müdafiə Komitəsinin üzvü Zahid Oruc danışıb. Z. Oruc bildirib ki, hazırkı məqamda dövlətimizlə bərabər, cəmiyyətimizin də üzərinə böyük



**Zahid Oruc:** "Məsələdə dövlətlə bərabər, cəmiyyətimizin də üzərinə böyük yük düşür"



**Elxan Şahinoğlu:** "Bu təhlükə ətraf dövlətlər üçün daha da artacaq"

yük düşür: "İlk olaraq onu qeyd edək ki, Tacikistanda baş verən məlum olayların necə yaranması haqqında hazırda çoxları düşünür. Rusiya prezidenti Vladimir Putin, Tacikistan rəhbəri İmaməli Rəhmana telefon açarkən hadisələri Tacikistanda qeyri-sabitlik yaratmaq istəyən qüvvələrin işi kimi xarakterizə edib. Öncə bu məsələni dövlət çevrilişinə cəhd kimi dəyərləndirdilər. İndi isə hadisəni dini dairələrin deyil, daha çox kriminal qruplaşmaların fəaliyyəti kimi xarakterizə edirlər. İŞİD-in Orta Asiyada baş qaldırması faktını qətiyyən inkar etmək olmaz. Çünki qatı dindar, xalis İslam modelinə dayanan cəmiyyətlərdə bu təhlükə hər zaman qalır. Həmin ölkələrdə siyasi hakimiyyət vətəndaşlara geniş imkanlar vermir, bu cəhətdən hadisələrin daha da inkişafı mümkündür. Azərbaycana gəlincə, son günlər Milli Təhlükəsizlik Nazirliyinin İŞİD-lə bağlı növbəti əməliyyatı həyata keçirildi. İŞİD xətti ilə Suriyada savaşlarda iştirak edən bir qrup azərbaycanlı həbs edildi. Etiraf etmək lazımdır ki, prosesə, sadəcə olaraq, hüquq-mühafizə orqanları daxilində nəzarət etmək, kifayət qədər mürəkkəb bir məsələdir. Ölkədə dini işlər üzrə müvafiq komitə ötən dövr ərzində, ölkə boyu geniş miqyaslı fəaliyyət aparmağa başlayıb. Həmçinin, cəmiyyətin özündə də bu məsələyə baxış əvvəlki illərlə müqayisədə çox dəyişilib. Hazırda insanlarımız anlayırlar ki, Suriyaya getməklə cənnətə deyil, cəhənnəmə düşə bilərlər. Sosial şəraitini anidən dəyişmək istəyən insanlar da Suriya variantından vaz keçiblər".

Z.Oruc bildirdi ki, əvvəllər İŞİD-in tərkibində olan azərbaycanlılar da hazırda orada olmasalar da təhlükəlidirlər: "Bizə bəllidir ki, o qruplara düşənlər heç zaman onlardan asanlıqla ayrıla bilmirlər. Əlaqələr bir şəbəkə halında saxlanılır. Onları ifşa edilmə qorxusu növbəti cinayətlərə sürükləyir. Bu baxımdan dünya və bölgə ekspertlərinin İŞİD-in Azərbaycan üçün nə dərəcə təhlükəli olması ilə bağlı şərhlərini bir kənara qoyub, məsələyə başqa aspektdən yanaşıram. İŞİD-çi elementlər Azərbaycanda müxtəlif təxribatlara ola bilər. Çünki təəssüflə qeyd edirəm ki, regionda risk elementləri kifayət qədər çoxdur. Buna qarşı dövlətimiz ən yüksək səviyyədə mübarizə həyata keçirir. Ancaq burada cəmiyyətdən də bəzi məsələlər çox asılıdır. Qonşu, qohum və digər səbəblərdən göz yumduğumuz təhlükənin özü sonradan ağır terror hadisələri kimi üstümüzə qayıda bilər. Ancaq bunu kütləvi təhlükə kimi gözləmək, cəmiyyəti qorxutmaq çox yanlış olar".

❑ **Əli RAİS**

# YAP-ın seçki siyahısının açıqlanması bu həftəyə qaldı

## Mehman Əliyev: "Siyahı Prezident Administrasiyası tərəfindən gecikdirilir..."

**Yeni Azərbaycan Partiyasının (YAP) parlament seçkilərində iştirak edəcək namizədlərinin siyahısı hələ də açıqlanmayıb. YAP icra katibinin müavini Siyavuş Novruzov siyahının ötən həftə açıqlanacağını bildirsə də, siyahının açıqlanması təxirə salındı.**

Səbəb kimi isə yekun siyahının hazırlanması və təsdiqlənməsi ilə əlaqədar partiyanın ali orqanının, İdarə Heyətinin toplantısının keçirilməməsi göstərilmişdi.

Hakim partiyanın yeni siyahısını açıqlamaması ilə bağlı müxtəlif fikirlər səsləndirilir. İddialardan biri YAP-ın müxalifət partiyalarının tam olaraq namizədlərini açıqlamasını gözləməsidir. Başqa bir iddia isə budur ki, hakim partiya ölkənin siyasi həyatının qaynarlaşmasından ehtiyat edir. Buna görə də siyahının açıqlanmasını maksimum uzadır.

YAP-ın maliyyə məsələləri ilə bağlı ölkə üzrə səlahiyyətli nümayəndəsi təyin olunan Siyavuş Novruzov son olaraq, siyahının tam olaraq hazır olduğunu və yaxın günlərdə açıqlanacağını əminliklə bildirib.



"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev isə siyahının Prezident Administrasiyası tərəfindən gecikdirildiyini deyir. O, YAP-da rəhbər şəxslərin parlament seçkilərində təmsil olunacaq namizədlərin siyahısını hazırladığını və onların istəyi ilə bu siyahının nə zaman açıqlanacağının müəyyən edildiyini bildirdi: "Siyahını həmin şəxslər hazırlayır. Prezidenti nəzərdə tutmuram, amma Prezident Administrasiyasında siyahını hazırlayan şəxslər var və onlar müəyyənləşdirirlər ki, siyahıda kimlər olsun. Siyahının niyə gecikdirilməsi sualına da ən dəqiq cavabı onlar verə bilər".

YAP-ın yeni siyahısında dəyişikliklərin olacağını deyən Mehman Əliyev səbəb olaraq bildirdi ki, son zamanlar ölkədə baş verən situasiya bunu tələb edir: "Yeni siyahıda, təbii ki, fərq olmalıdır. Çünki Azərbaycanda yeni situasiya var. Azərbaycanda artıq neft erası bitib. Ölkədə yeni qeyri-neft erası başlayıb. Bunun üçün də hakimiyyətin tamamilə başqa yanaşması, başqa idarəetməsi olmalıdır. Buna görə də parlament seçkilərində hökumətin siyahısında dəyişikliklər mütləq olacaq".

❑ **İlkin MURADOV**

# Seçki şousunda iştirak - tarixi missiya



**Xalid KAZIMLI**

**Elə bir dövr gəlib ki, seçkini boykot təslim olmaq, sonucu bəlli olan seçkidə iştirak isə mövcudluğu qorumaq səciyyəsi daşıyır.**

Son 25 ildə ölkəmizdə keçirilən elə bir seçki olmayıb ki, seçki kampaniyasına start veriləndə ortaya boykot söhbətləri çıxmasın. Elə bir seçki olmayıb ki, onda bütün siyasi qüvvələr iştirak etsin. Mütləq kimlərsə seçkini boykot edib, kənarda qalıb və sonra seçkinin legitimliyini şübhə altına alıb.

Biz indiyə qədər elə bir seçki keçirməmişik ki, onu tam demokratik, şəffaf, qanuni seçki kimi səciyyələndirmək mümkün olsun.

İstisna hal kimi yalnız 1992-ci ildə keçirilən seçkini demək olar, o da müharibənin, od-alovun içində keçirilirdi, yenicə qurulmuş dövlətin bir yaşı belə yox idi, dövlət strukturları bərqərar edilməmişdi. Bu seçki də müasir tariximizin ən dürüst seçki olmasına baxmayaraq, ideal deyildi.

1990-cı ildə keçirilən və o dönəmin prezidenti Ayaz Mütəllibovun ümumxalq səsverməsi yolu ilə prezident seçilməsini təmin edən seçki dövrün ən qüdrətli müxalifət təşkilatı AXC tərəfindən boykot edildi. Seçkiyə yalnız ASDP lideri Zərdüşt Əlizadə qatıldı, televiziya ilə silsilə çıxışlar etdi, özünü, partiyasını tanıtdı, əvəzində partokratların rişxəndini ("gör kim gəlib Ayaz Niyazoviçə rəqib olub"), cəbhəçilərin nifrətini (seçkiyə legitimlik donu geyindirdiyinə görə) qazandı.

1992-ci ildə keçirilən seçkidə əksər siyasi qüvvələr iştirak etdi, amma revanşist partokratiya oliqarxiyası hansı namizədin ətrafında birləşmək lazım olduğunu darmacalda müəyyən edə bilmədi, son gündə səsini populist şüarlarla çıxış edən Nizami Süleymanova verərək, onu seçki ikincisi etdi.

1993-cü ildə keçirilən prezident seçkilərində tanınmış siyasətçilərdən heç kəs iştirak etmədi. Onlar seçkini məcburiyyət üzündən (şansları sıfıra bərabər idi) boykot etdilər və hakimiyyəti artıq götürmüş olan Heydər Əliyevin qarşısına Karrar Əbilov və Zakir Tağıyev ad-soyadlı iki həvəskar-namizəd çıxdı.

1995-ci ildə keçirilən parlament seçkilərində Müsavat zorla kənarda saxlanıldı. 1998-ci ildə baş tutan prezident seçkilərində müxalif qüvvələri birləşdirən siyasi blok boykot yolu tutdu, şans AMİP sədri Etibar Məmmədovun üzünə güldü. O, ya seçki ikincisi olaraq ikinci tura keçdi, ya da seçkidə qalib gəldi, amma rəsmi nəticələr başqa cür elan olundu, heç zaman əsl həqiqət ortaya çıxmadı.

2000-ci ilin parlament seçkilərinə qatılan çox olsa da, yenə də seçkilərdə xalqın səsini alanlara mandat verilmədi.

Sonrakı seçkilərdə də boykot çağırışları da çox oldu, seçkini boykot edənlər də.

İndi il olub 2015, hələ də seçkini boykot etməkdən danışırıq.

Əlbəttə, bu çağırışlar kefdən deyil. Boykot tərəfdarı olan qüvvələr görürlər ki, heç bir qanuni seçki mühiti yoxdur və bu seçkilər də uğurlu bir şəkildə saxtalaşdırılacaq. Onlar özlərini çox zəif sayır, müqavimət göstərə bilməyəcəklərini anlayır, nəticəsi olmayan bir kampaniyaya qatılıb enerji, maddi vəsait, vaxt, əsəb sərf etmək istəmirlər.

Bunları bilə-bilə seçkiyə qatılmaq istəyənlər də var. Onların bir hissəsi hələ də nəyəsə ümid edən, entuziazmı aşıb-daşan yeni qüvvələrdir, bir hissəsi isə dəfələrlə seçkidə zorla uduzdurulan, amma boykota getməyi, seçkidə iştirakdan qaçmağı öz tarixi missiyasına zidd hesab edənlərdir.

Bu qüvvələr anlayırlar ki, bugünkü seçki şəraiti ilə ya ümumiyyətlə mandat qazanmayacaqlar, ya da qazandıqları 3-4 mandatdan artıq olmayacaq. Bununla belə, onlar iztirablı seçki marafonuna qoşulurlar - sırf ona görə ki, iqtidar komandasının "qırğı"ları "müxalifət ölüb, müxalifət yoxdur" deyə sinələrinə döyməsin.

Onlar hesab edirlər ki, hər halda, xalq ortada narazı qüvvələrin, müxalifətin olduğunu görməlidir.

Bu gün nəticəni nəzərə alaraq seçkiyə qatılmamaq təslim olmaq, sıradan çıxarılmanı qəbul etmək, əsas rəqibin təntənəsinə rəvac vermək anlamına gəlir. Xalq görməlidir ki, ölkə hələ Özbəkistana, Türkmənistana çevrilməyib, müqavimət var - budur boykota qarşı olan qüvvələrin düşüncəsi.

Belə bir yayğın fikir də var ki, guya hakimiyyətin növbəti seçki şousunda iştirak etmək lazım deyil. Ancaq onun bir xeyri olurmu? Əksinə, onda hər şey daha rəvan gedir və beynəlxalq birlik də seçkilərin nəticələrini daha rahat tanıyır, tələblərini sərtləşdirmir, üstəlik, günahı müxaliflərdə görür.

YENİ MÜSAVAT
N 197 (6225) 7 sentyabr 2015



# Həyat bilgisi...

Hüseynbala SƏLİMOV

**İnsan hər şeydən əvvəl nəyi bilməlidir? Və o, bütün ömrü boyu nəyi öyrənməyə can atmalıdır? Belə suallar verəndə adətən hamı qayıdır ki, ədəbiyyatı mütaliə etmək lazımdır, dünyadakı yeniliklərin kursunda olmaq vacibdir.**

Mənim bu cavablara elə bir iradım yox və həmin sualları da başlığa ironiya xatirinə çıxarmadım...

Amma mənə elə gəlir ki, bütün bilgilərdən irəli olan iki bilgi var. Birincisi, insan o vaxt kamil olur ki, o insanı bilir, insanı tanıyır...

Təxminən 23-24 ildir ki, siyasətdən yazıram, ondan da bir qədər əvvəl də siyasi və ictimai proseslərin iştirakçısı olmuşam. Bu müddət ərzində siyasətdə olan çox insanı müşahidə etmək imkanım olub...

Amma düşünürəm ki, bizim siyasət adamları arasında ən uğurlu sayıla bilənlər indi hakimiyyətdə olanlardır...

Ən azı ona görə ki, bu adamlar nə az, nə də çox, düz 22 il hakimiyyətdə qala biliblər. Mən hələ də belə hesab edirəm ki, biz daha savadlı idik, dövrün yeniliklərini bunlardan qat-qat yaxşı və mükəmməl bilirdik. Amma cəmi bircə il hakimiyyətdə ola bildik...

Niyə belə oldu? Necə oldu ki, bunlar 22 il hakimiyyətdə qaldığı halda, biz cəmi bircə il bunu bacardıq? Mənə elə gəlir ki, əsas səbəb o idi ki, biz insanı, xüsusən də orta statistik azərbaycanlını pis tanıyırdıq... Bəlkə də heç tanımırdıq...

Bizə elə gəlirdi ki, hamı bizim kimi romantikdir. Bəli, bizə elə gəlirdi ki, hamı proseslərə və hadisələrə bizim kimi ürəkdən və səmimi yanaşır...

Hətta fərqinə də varmırdıq ki, öz səmimiyyətimizlə çox vaxt özümüz özümüzü gülüş obyektinə çevirirdik, çünki hələ çox şeyləri insanlar bizim tək səmimi qəbul etmirdilər - onlar bərəabərliyi tamam başqa cür dərk edirdilər, azadlıq haqqında öz təsəvvürləri vardı, siyasət və siyasətçilər haqqında on illər ərzində formalaşmış stereotiplərdən hələ xilas olmamışdılar...

Elə buna görə də insanlar bizə teatr adamlarına baxan kimi baxırdılar, ürəklərində bizə gülür, fürsət düşən kimi də itaətsizlik göstərirdilər. Amma biz bunun fərqinə varmırdıq. Elə bilirdik ki, bir-iki ilə insanları dəyişəcəyik...

Niyə belə hesab edirdik? Səbəbi bu idi ki, həyatı bilmirdik, bizim həyat bilgimiz yox idi. Təbii ki, həyat bilgisi yaşla gəlir, bizim əksəriyyətimiz isə o vaxt hələ cavan idik. Amma həyat bilgisinin mühüm bir hissəsi də var ki, o bir nəsildən digərinə ötürülür, bir insandan o birisinə, böyükdən-kiçiyə verilir. Amma biz bu bilikdən imtina etmişdik, yenisini isə qazanmamışdıq və tamam nabələd adamlara çevrilmişdik...

Təbii ki, "İgidlik ondur, doqquzu qaçmaqdır!", "Xalq üçün ağlayan gözlər kor olar!", "İşinin xatirinə düşməninə də dayı de!" kimi "bilgiləri" qəbul edə bilməzdik. Amma o bilgilərə ki, biz tapınmışdıq onlar hələ oturuşmamışdı və onlar hələ təcrübədə yox idi...

Bəli, biz şəxsiyyətin ikiləşməsini, haçalanmasını qəbul edə bilmirdik, lap elə Mövlana demişkən, göründüyümüz kimi olmağa, olduğumuz kimi görünməyə çalışırdıq...

Amma insanlar bu vaxta qədər başqa şeylər görmüşdülər. Onlar görmüşdü ki, insan bir şey fikirləşər, amma başqa şey deyər, evdə bir cür olar, işdə isə tamam başqa cür...

Ona görə də bizimkilərin fikirləri və müsahibələri həmişə gülüş doğrurdu. Biz isə bunun fərqinə varmırdıq...

Həm də ona görə bir il hakimiyyətdə qaldıq ki, başqa cür qalmaq istəmirdik və bizə elə gəlirdi ki, prinsiplər hər şeydən önəmli idi. Kimə bir söz deyirdin, dərhal qayıdırdı ki, əgər belədirsə, mən bu gündən istefa verirəm...

Bu, bizimkilərin ən kobud səhvi idi. Sən özünə hörmət etməyə bilərsən, amma tutduğun posta - vəzifəyə hörmət etməyə borclusan...

Gəl, bizimkilər bunu nəzərə almırdılar. Ona görə də bir il ərzində vəzifə də, post da, dövlət və hakimiyyət institutları və dəyərləri də devalvasiyaya məruz qaldılar...

Bunları niyə yazıram? Əslində bu sualı əvvəldə verməli idim. Ötən həftə bilik günü qeyd olundu. O gün Ukraynanın baş naziri insanlar qarşısında çıxış edib dedi ki, biz hərbi biliyə can atmalıyıq...

Bəli, kimə nə lazımdırsa, onu da deyir. Mən də düşündüm ki, siyasətə gələn gənclərə deyim ki, əvvəlcə insanları və həyatı öyrənin... Görün, insanlar necə və nə düşünür? Görün, həyat sizdən hansı keyfiyytlər tələb edir?..

Siz onları qəbul etməyə və dəyişməyə çalışa bilərsiniz. Fəqət, bundan əvvəl onları - həyatı və insanları bilməlisiniz, tanımalısınız...

**Bu il noyabrın 1-də ölkəmizdə keçiriləcək parlament seçkilərində nəzəri cəhətdən olsa da, iştirak edəcək siyasi qurumlar və tanınmış simalar məlumdur. Maraqlıdır ki, hüquq müdafiəçiləri əvvəllər olduğu kimi, bu dəfə də seçki prosesində passiv görünürlər. İndidən onlardan hər hansı birinin namizəd olacağını söyləmək çətindir.**



# Hüquq müdafiəçiləri parlament seçkilərinə qatılmayacaq

Mirvari Qəhrəmanlı hesab edir ki, hüquq müdafiəçisi olaraq, deputatlardan çox iş görüb: "Düşünürəm ki, hüquq müdafiəçisi kimi, fəaliyyətim 5 il xalq üçün heç nə edə bilməyən əksər deputatların fəaliyyətindən qat-qat üstündür. Bir deputat və bir hüquq müdafiəçisi hesabat versin. Kimi öz xalqına daha çox xeyir verib, ya özünə? Mən hüquq müdafiəçisi kimi daha çox müstəqiləm, nəinki deputat kimi".



**Novella Cəfəroğlu: "55 yaşdan yuxarı şəxslər deputat olmasalar yaxşıdır"**



**Elçin Behbudov: "Bir daha seçkilərdə iştirak etməyəcəyəm"**



**Mirvari Qəhrəmanlı: "Hüquq müdafiəçisi kimi deputatdan çox iş görürəm"**



**Səadət Bənəniyarlı: "Gələcəkdə namizəd ola bilərəm"**

Yalnız hazırda deputat olan Çingiz Qənizadəni istisna etmək olar. Çox güman ki, o, builki seçkilərdə yenə də iddiasını irəli sürəcək. Hüquq müdafiəçiləri arasında bu mövzuda kiçik bir sorğu apardıq.

Novella Cəfəroğlu deputat seçimlərinə qatılmayacaq. O, hesab edir ki, parlament gənclərdən və ortayaşlı şəxslərdən təmsil olunmalıdır: "Yaşım deputat olmağa, düşünürəm ki, imkan vermir. Doğrudur, parlamentdə məndən də yaşlılar var. Mən istərdim ki, parlamentdə daha çox gənclər olsun. Bütün deputatların siyasi mövqelərindən asılı olmayaraq, bütün qapıları üzümüzə açıqdır. Sözlərimizi onlara daim deyirik. Onların bizə köməyi deputat olmasalar belə, daha çox dəyər. Yaşlıların deputat olmasına münasibətim mənfidir. Gənclər və ortayaşlıların olması vacibdir. 55 yaşdan yuxarı şəxslər deputat olmasalar yaxşıdır".

İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov bir daha deputatlığa namizəd olmayacağını açıqladı: "İddiamı bir dəfə irəli sürdüm. Mənə qarşı haqsız münasibəti gördüm. Bu baxımdan bir daha namizəd olmayacağam. 2010-cu il seçkilərində doğulduğum, boya-başa çatdığım Yasamaldan namizəd oldum. Ədalətsizliyi orada gördüm və özümə söz verdim ki, bir daha seçkilərdə iştirak etməyəcəyəm. Bundan sonrakı seçkilərdə də iştirak etməyi qətiyyən düşünmürəm. Bir dəfə namizədlik verərlər. Alınmadısa, daha cəhd etməyin mənası yoxdur".

Hüquq müdafiəçisi Səadət Bənəniyarlı isə hələ də tərəddüd içərisindədir: "Hələ ki bu barədə fikrim yoxdur. Gələcəkdə namizəd ola bilərəm. Amma hər şey mühitdən asılıdır. Ona görə də hazırda sualınıza konkret cavab verməyə çətinlik çəkirəm. Gələcəkdə buna baxarıq. Bu il deputatlığa iddiaçı olmağım mümkünsüz görünür. Obyektiv danışmaq lazımdır. Hər şeyin real olmağını istəyirəm".

❑ Cavanşir ABBASLI

# "Sosial mənzillər tam təmirli şəkildə vətəndaşlara veriləcək"

**Musa Quliyev:** "Bu mənzillərin maya dəyərini aşağı etmək üçün beşmərtəbəli binalar formasında tikilməsi nəzərdə tutulub"

**Bakıda onlarla gənc ailə mənzil almaq üçün sosial evlərin tikilməsini və ipoteka şərtlərinin yüngülləşməsini gözləyir. Məsələ Milli Məclisin divarları arasında da bir neçə dəfə müzakirə edilib.**

İyulun 13-də ölkə başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında isə dövlət başçısının Azərbaycanda ipoteka şərtlərinin sadələşdirilməsi ilə bağlı göstərişi oldu. Lakin müxtəlif şəxslər tərəfindən sosial evlərin tikintisinin vacib olduğu söylənilsə də, hələ də bununla bağlı konkret layihə hazırlanmayıb.

Mənzil bazarında qiymətlərin artması isə əhali arasında sosial evlərə ehtiyacı artırıb. İqtisadi ekspertlər hesab edirlər ki, manatın devalvasiyasından sonra mənzil bazarında müşahidə olunan qiymət azalmaları bu ilin payızından etibarən yenidən arta bilər. Bu isə mənzilə sahib olmaq istəyənlərin işini çətinləşdirəcək. Nəticə etibarı ilə cəmiyyətin mənzilə ehtiyacı olan müxtəlif təbəqələrində sosial evlərə və güzəştli ipoteka kreditlərinə tələbat artacaq.

Bəs sosial evlərin tikintisindən sonra bu mənzillərə kimlər sahiblənə biləcək? Məsələ ilə bağlı qəzetimizə danışan Milli Məclisin Sosial siyasət komitəsinin sədr müavini Musa Quliyev sosial evlərin tikintisinin nəzərdə tutulduğunu təsdiqlədi: "Biz burada dünya təcrübəsindən istifadə edəcəyik. O evlər adətən aztəminatlı ailələr üçün nəzərdə tutulub. Məlumdur ki, sosial vəziyyəti yaxşı olan ailələr özləri istədikləri mənzillərə sahib olurlar. Sosial evlərdən isə özlərinə mənzil ala bilməyən şəxslər fayadalanacaqlar. Mənzillər tam təmirli olacaq. Hər bir şərait qurulacaq. Maya dəyərini aşağı etmək üçün beşmərtəbəli binalar formasında tikilməsi nəzərdə tutulub. Vətəndaşların bu evlərə sahib olma qaydaları da çox sadədir. Bununla bağlı dünyanın müxtəlif ölkələrinin təcrübələri mövcuddur. Əgər hökumət bu layihələri reallaşdırmağa başlayarsa, bu cür məsələlər həll olunacaq işlərdir. Qeyd etdiyim kimi, bu cür evlər adətən mənzilə daha çox ehtiyacı olan insanlara verilir".



Musa Quliyev

M.Quliyev onu da dedi ki, ailə tərkibindən asılı olaraq, mənzillərin əraziləri də müxtəlif olur: "Ailə tərkibi kiçik olanlar üçün 70-100 kvadratmetr sahəsi olan mənzillər verilir. Ailə tərkibi geniş olanlara isə 150-200 kvadratmetr yaşayış sahəsi olan evlər verilir ki, onların da sayı bir o qədər çox olmur. Eyni zamanda bu layihəni şəhərciklər formasında da gerçəkləşdirmək olar".

Musa Quliyev əlavə elədi ki, vətəndaşlar bəzən güzəştli ipoteka kreditləri ilə sosial evləri qarışdırırlar. Ancaq bunlar fərqli şeylərdir: "Güzəştli ipoteka krediti ilə vətəndaş harada istəsə müəyyən şərtlər daxilində mənzilə sahib ola biləcək. Ancaq sosial evlər isə konkret müəyyənləşdirilmiş mənzillərdir. Sosial evlər ipoteka şərtləri ilə verilmir. Bu mənzillər vətəndaşlara kirayə müqaviləsi əsasında verilir. Vətəndaşlar müəyyən müddət orada yaşayıb, müqaviləyə uyğun olaraq ödənişi bitirdikdən sonra həmin evlərə sahiblənirlər".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 197 (6225) 7 sentyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Azərbaycan Vətən müharibəsi astanasında, savaşa hazırıqmı?

## Şanlı ordumuz hərəkətə keçdi; 65 000 şəxsi heyət, 700 zirehli texnika, 500-dən çox raket və artilleriya irimiqyaslı təlimlərə başladı; **Pənah Hüseyn:** "Dövlət qətiyyətli addımlar atacaqsa, cəmiyyət də onu müdafiə edəcək..."

**Azərbaycan-Ermənistan sərhədi və qoşunların təmas xətti boyu gərginlik ən yüksək həddə çatıb, böyük savaş hər an başlaya bilər. Son günlər rəsmi və qeyri-rəsmi şəkildə yayılan xəbərlər belə bir qənaətə gəlməyə kifayət qədər əsas verir.**
**Müdafiə Nazirliyinin məlumatına görə, son sutka ərzində erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, qumbaraatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 145 dəfə**

Düşmən Azərbaycanın Qazax, Tovuz, Goranboy, Tərtər rayonlarındakı mövqelərini, həmçinin yaşayış məntəqələrini, həmçinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Göygöl, Goranboy, Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutub. Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 208 atəş zərbəsi endirib. Göründüyü kimi, düşmən Naxçıvan istisna olmaqla, bütün sərhədyanı və təmas boyu mövqelərimizi atəş altında saxlayıb.

Bir gün əvvəl isə Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-təxribat qrupları qoşunların təmas xəttində bir neçə yerdə mövqelərimizə basqın etməyə cəhd göstərib. Müdafiə Nazirliyi xəbər verir ki, Silahlı Qüvvələrimizin bölmələrinin əvvəlcədən düşməni aşkar etməsi, görülən qabaqlayıcı tədbirlər və qarşı tərəfə atəş gücü vasitəsilə təsirdən sonra işğalçılar avtomat və silahın darağını ataraq geri çəkilməyə məcbur edilib. İlkin məlumata görə düşmənin diversiya qrupunun 2 üzvü öldürülüb və yaralıları var. Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib.

Ötən həftə ərzində erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini ümumilikdə 834 dəfə pozub.

Silahlı Qüvvələrimizin bölmələri əməliyyat şəraitini qiymətləndirərək düşmənin bütün təxribat və fəaliyyətlərinin qarşısını vaxtında almaqla onun atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 1.017 atəş zərbəsi endirib. Düşmənə qarşı güc tətbiq etməklə görülən adekvat tədbirlər nəticəsində son bir həftə ərzində müxtəlif istiqamətlərdə Ermənistan silahlı qüvvələrinin 7 nəfər hərbi qulluqçusu məhv edilib və xeyli sayda yaralısı var. Silahlı Qüvvələrimizin bölmələri bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir

Azərbaycan ordusunun düşmənə sarsıdıcı zərbə vurması nəticəsində Ermənistan ordusu və əhalisi panikaya düşüb. Müdafiə naziri Zakir Həsənovun düşmənin istənilən hərəkət edən obyektinin dərhal məhv edilməsi barədə tapşırığını layiqincə icra edən əsgər və zabit heyətimiz ərköyünlük edən işğalçı ölkəni çətin vəziyyətə salıb. Xüsusilə də Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "TurAz Qartalı - 2015" birgə taktiki təlimlərini keçirməsi İrəvanda təşviş doğurub.

Ermənistan Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini Movses Akopyan bundan narahat olmadıqlarını iddia etsə də, Azərbaycanın "Türkiyə heç vaxt inkar eləməyib ki, Azərbaycana kömək edəcək. Türkiyə silahlarından istifadə təəccüb doğurmur. Rəqib həmişə onu tətbiq edib, biz işin içindəyik. Biz həmçinin, bilirik ki, bu - hansı silahlardır və haradan gətirilir" - deyib. Məlumata görə, Azərbaycanın ordu komandanlığının erməni təxribatlarına qarşı amansız olacağını elan etməsinin ardınca Ermənistanın Azərbaycanla həmsərhəd kəndlərinin əhalisinin evakuasiyasına başlanılıb. Eyni zamanda bu ərazilərdə güllədən qorunmaq üçün divarlar hörülür. Paralel olaraq Ermənistanda "İldırım-2015" komanda-qərargah təlimlərinə başlanılıb. Erməni KİV-ləri yazıb ki, təlimlər çərçivəsində İrəvan yaxınlığındakı "Nubaraşen" təlim poliqonunda qaçqınlar üçün şərti çadır düşərgəsi salınıb. Bundan əvvəl isə Ermənistanın Azərbaycanla sərhəd yaşayış məntəqələrindən əhalinin kütləvi evakuasiyası, habelə İrəvandakı mühüm obyektlərin əməkdaşlarının təcili köçürülməsi sınaqdan keçirilmişdi. Bütün bunlar düşmən ölkədə Azərbaycanla mümkün irimiqyaslı müharibə zamanı başlarına nə gələcəkləri barədə aydın təsəvvürlərin olmasından xəbər verə bilər (Virtualaz.org).

Azərbaycan ordusu da genişmiqyaslı hərbi təlimlərə başlayıb. Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Respublikasının prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən müdafiə nazirinin rəhbərliyi altında sentyabrın 6-dan 13-dək Silahlı Qüvvələrin bütün qoşun növlərinin döyüşə hazırolma və döyüş qabiliyyətinin yoxlanılması məqsədilə Komanda Qərargah Hərbi Oyunları keçirilir. Təlimlərə 65.000 nəfərədək şəxsi heyət, 700-dək zirehli texnika, 500-dən çox raket və artilleriya qoşunlarının qurğusu, Hərbi Hava Qüvvələrinin 40-dək təyyarəsi və 50-dək helikopteri, Hərbi Dəniz Qüvvələrinin 20-dək gəmi və kateri, eləcə də Xüsusi Təyinatlı Qüvvələrin və qruplaşmaların havadan mühafizəsi məqsədilə qoşunların hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri cəlb edilib. Təlimlərdə hava kəşfiyyatının aparılması məqsədilə pilotsuz uçan aparatlardan istifadə olunacaq.

Komanda Qərargah Hərbi Oyunlarında qoşunların döyüşə tam hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, müdafiənin aparılması, əks-hücum əməliyyatının hazırlanması və keçirilməsi, eləcə də düşmənin mühasirəyə alınması və darmadağın edilməsi üzrə tapşırıqlar icra olunacaq. Ali Baş Komandanın göstərişinə əsasən təlimlər zamanı birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə ehtiyatda olan 6.000 nəfərdən artıq hərbi vəzifəli təlim toplanışına cəlb ediləcək. Döyüş hazırlığı çərçivəsində onlarla silah və hərbi texnikadan istifadə qaydaları üzrə praktiki məşğələlər, döyüş atışları, mənəvi-psixoloji hazırlıq və döyüş uzlaşması üzrə tədbirlər keçiriləcəkdir. Komanda Qərargah Hərbi Oyunlarının son mərhələsində təlim mərkəzləri və poliqonlarda motoatıcı və tank bölmələrinin, raket və artilleriya qurğularının, zenit-raket komplekslərinin, döyüş təyyarə və helikopterlərinin döyüş atışları icra olunacaq, praktiki raket buraxılışları və bombalama həyata keçiriləcək.

Bütün bu müşahidələr Qarabağda müharibənin açılmaz olduğu təsəvvürünü yaradır. Paralel olaraq Rusiyanın bölgədə xeyli aktivləşməsi, Gürcüstanın içərilərinə doğru irəliləməsini əsas gətirən xarici ekspertlər Qafqazda böyük savaşın baş verəcəyini proqnozlaşdırırlar. Hesab olunur ki, Rusiya Azərbaycana qarşı planlarını reallaşdırmaq üçün Ermənistan kartından istifadə edə bilər və bu zaman Bakı məcburən savaşa təhrik edilə bilər.

Politoloq Arzu Nağıyev deyir ki, son vaxtlar ABŞ Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində təşəbbüsü ələ almağa cəhd etdikcə gərginlik daha da artır: "Təbii ki, burada əsasən Rusiya daha çox maraqlıdır. Bunun səbəbi isə regionda nüfuz məsələsinin itirilməsidir. Məlumdur ki, ABŞ-ın əsas marağı iqtisadi maraqdır və Rusiya da buna görə Qərbdə Ermənistanla həmsərhəd olan və əsas iqtisadi kommunikasiyaların keçdiyi bölgədə gərginlik yaradır, bunu da Ermənistan silahlı birləşmələri vasitəsilə edir. İkincisi, bu üsulla Azərbaycanı Avrasiya İttifaqına üzv etməyə cəhd göstərir və Lavrovun gəlişində bu məqam var idi. Üçüncüsü isə artıq iri çaplı silahlardan istifadə edilməklə öz silah alverini genişləndirməyə çalışır. Bu, həmişə belə olur - NATO da Şərqi Avropada belə taktikadan istifadə edir. Sentyabrın 7-də Sərkisyanın Moskvada görüşü planlaşdırılır və bu hesabat və yeni təlimatlar görüşü olacacaq".

Azərbaycanın sərhəd rayonlarındakı vəziyyətə gəldikdə, A.Nağıyev qeyd etdi ki, hazırda o, Tovuz rayonundadır və vəziyyəti şəxsən müşahidə edir. Onun sözlərinə görə, düşmənin hədəfində olan dinc əhali təhlükə ilə üz-üzədir: "Artıq kəndlərin içəriləri də vurulur. Gecələr işıqlar söndürülür, zirzəmilərdə gecələyirlər. Dinc əhali arasında yaralananlar və evləri dağılanlar var. Təbii ki, ordumuz layiqli cavab verir, ancaq gərginlik qalmaqdadır. Düşünürəm ki, əhalinin qorunması vacib məsələdir. Doğrudan da, həmin ərazilərdə yaşamaq igidlik nümunəsidir və onların dincliyi üçün divarların tikilməsindən başlayaraq, vergilərdən azad etməyə qədər bir sıra güzəştlər tətbiq etmək lazımdır. Əks halda çox arzuolunmaz nəticələr ola bilər".

Bu arada Azərbaycan və Ermənistan ordusunun müqayisəli təhlili də düşmənin xeyli zəif olduğu qənaətini ortaya qoyur. Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanı Ramiz Tahirov Ermənistan hərbi hava qüvvələrinin son itkiləri və qüvvəsi, daha dəqiq ifadə etsək, qüvvəsizliyi barədə ANS-ə açıqlama verib. "Ermənistanda Su-25 tipli təyyarələr, Mi-24 helitopterləri var, bizdə Mi-35, Mi-8, Mi-9 təyyarələri var. Hava hücumundan müdafiə üçün ordumuzun ixtiyarında BUK zenit raket kompleksi var. Ermənistanda S300 raket kompleksləri var. Bu raketlər Dağlıq Qarabağa yerləşdirilməyib. Azərbaycan ordusunda isə S300 PMO Favorit raket kompleksləri var. Sadəcə müqayisədə görə bilərsiniz ki, texnikanın səviyyəsində biz üstünük. Şəxsi heyətin bacarığı isə daha da güclüdür", - deyə R.Tahirov bildirib.

Bəs ölkə siyasətinin öndə gedən isimləri baş verənləri necə dəyərləndirir, müharibəni real sayırlarmı?

Azərbaycanın müxalifət liderlərindən biri, Xalq Partiyasının sədri Pənah Hüseyn "Yeni Müsavat"a bildirdi ki, Azərbaycana qarşı təcavüz davam edir. Ona görə də Azərbaycan dövləti, cəmiyyəti və Silahlı Qüvvələri bu təcavüzə, işğala qarşı Konstitusiya və beynəlxalq hüquqa uyğun hərəkətləri etməlidir: "Bu gün Azərbaycan dövləti və cəmiyyəti qarşısında duran ən mühüm məsələ bundan ibarətdir. Dövlət bu istiqamətdə qətiyyətli addımlar atacaqsa, cəmiyyət də onu müdafiə edəcək".


Pənah Hüseyn

P.Hüseyn əlavə etdi ki, Qarabağ məsələsinə iqtidar-müxalifət kontekstindən yanaşmanı doğru saymır. Ordumuzun mövcud durumuna gəldikdə, müxalifət partiyasının sədri sadəcə bunu dedi: "Ümumiyyətlə, ordu güclüdür və ya bu kimi başqa məsələlərin ictimai müzakirəsini mən doğru hesab etmirəm".

Görünən budur ki, ordumuz da, iqtidarlı-müxalifətli cəmiyyət də Qarabağın azad olunmasına tam hazırdır. Sadəcə, Qarabağ ətrafında özünün təhlükəli oyunlarını oynayan xarici qüvvələrin müqaviməti olmasa, bu şərəfli hadisə qısa müddətdə reallaşa və Azərbaycan bayrağı Xankəndində dalğalana bilər...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 197 (6225) 7 sentyabr 2015




# 1 saylı avtobusun sərnişinləri "Yeni Müsavat"dan kömək istədilər

## Dövlət qurumları hərəkətə keçdi...

**Paytaxtda bəzi marşrut xətlərində yerdəyişmələr, bir sıra marşrut avtobuslarının ləğvi əhali tərəfindən birmənalı qarşılanmayıb. Xüsusilə də Avropa Oyunlarından sonra müvəqqəti ləğv edildiyi bildirilən, lakin bu günədək xəttə buraxılmayan 1 saylı avtobusun sərnişinləri vəziyyətdən çox narazıdırlar.**

Bu barədə Musavat.comun əməkdaşına şikayətlənən sərnişinlər bildirdilər ki, artıq aylardır dözülməz vəziyyətlə üz-üzə qalıblar. Onların dediyinə görə, "Neapol" dairəsindən "28 May" metrostansiyasına qədər uzun bir məsafəni qət edən avtobus şəhərdə ən rahat marşrut xətlərindən biri sayılırdı. Lakin bazar günündən etibarən 1 saylı avtobus bərpa olunsa da, yolun yarısınadək işləyir. Belə ki, həmin avtobus "Koroğlu" metrostansiyasından "28 May"a qədər məsafəni əhatə edir. Bu isə minlərlə paytaxt sakinini narazı salıb.

Şikayətçilərin sözlərinə görə, şəhərin mərkəzinə təqribən 30 dəqiqə ərzində rahat şəkildə işə, dərsə getdikləri halda, indi ən azı iki marşrut dəyişməli, ya da taksidən istifadə etməli olublar. "İndi "Köhnə Günəşli"dən gələn 40 saylı avtobusdan istifadə edib metroya düşürük. Hər gün yola əlavə pul xərcləyirik, üstəlik, basabasda nəfəs belə almaq mümkünsüz olur. Qarşıdan da yeni dərs ili gəlir, vəziyyət fəlakətli dərəcədə pis olacaq. Xahiş edirik bizim dərdimizi yuxarılara çatdırın, tədbir görsünlər". Bu sözləri şikayətçilərdən biri söylədi.

Nəqliyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Namiq Həsənov "Yeni Müsavat"a bildirdi ki, yaxın günlərdə yavaş-yavaş, təkmilləşmə yolu ilə "Baku Bus"un avtobusları xəttə buraxılacaq: "1 saylı avtobus da həmin marşrutlardan biridir. 2 marşrut bir, 3 marşrut bir tədricən xəttə buraxılacaq. Çünki bu marşrutları birdən dəyişsək, əhali arasında da çaşqınlıq yaranar". N.Həsənov 1 saylı avtobusun əvvəlki hərəkət trayektoriyasının yarıbayarı azaldılması səbəbindən sərnişinlərin narazılığına münasibət bildirərkən bunları söylədi: "Söhbət bu istiqamətdə xəttin başqa bir şirkət tərəfindən alınmasından getmir. Paralel, bir-birini təkrarlayan marşrutların məsələsi həmişə gündəmdə olub. Sizin qaldırdığınız məsələni də biz araşdırarıq. Hər halda məqsədimiz sərnişinlərə narahatlıq yaratmaq deyil. Konkret nəsə deyə bilmərəm, amma tam məsuliyyətlə deyirəm ki, bu məsələ araşdırılacaq".

Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin mətbuat katibi Şəfa Mehmanqızı sorğumuza cavabında bunları bildirdi: "1 saylı marşrut avtobusunun köhnə xəttinin bərpa olunması barədə təklifinizi çatdırdım. Onlardan soruşdum ki, bəs, hazırkı şəraitdə əhali nə etməlidir. Dedilər ki, xəttə "Baku Bus"un avtobusları çıxdığı üçün öz avtobuslarımızı ləğv etmişik. Amma bununla bağlı bir layihə hazırlanıb. Yaxın zamanda "Neapol" dairəsi, Bakı kinoteatrının yanından başlayaraq, "Koroğlu" metrostansiyasının yanından, "Koroğlu" körpüsündən Ziya Bünyadov prospektinə çıxmaqla yeni marşrut xətti təşkil olunacaq. Yəni layihə təklif formasında hazırdır, sadəcə, onun icrası üçün Nazirlər Kabinetinin təsdiqi lazımdır". Lakin Şəfa xanım bildirdi ki, bu marşrut 28 May istiqamətinə getməyəcək və Heydər Əliyev prospektinə daxil olmayacaq: "Baku Bus"ın avtobusları "Koroğlu" prospektindən Heydər Əliyev prospekti ilə 28 May metrostansiyası istiqamətində işləyəcək. O istiqamətdə getmək istəyənlər gəlib "Koroğlu" metrostansiyası yanında düşüb ikinci marşruta minməklə şəhərin mərkəzinə gedə bilərlər. Yaxud ola bilsin ki, "Neapol"dan Ziya Bünyadov prospektinə doğru yeni marşrut xəttə buraxılarsa, ordan da şəhərin mərkəzinə doğru avtobusun getməsi mümkündür. Amma sərnişinlər əmin olsunlar ki, "Neapol"dan şəhərə doğru marşrut xətti olacaq. Məsələ burasındadır ki, 1 saylı artıq bizim marşrut sayılmır, İcra Hakimiyyətinin tərkibində yaradılmış "Baku Bus" MMC-nin avtobuslarıdır. Sərnişindaşıma məsələsi iki yerə bölündüyü üçün ola bilsin ki, müvəqqəti olaraq problemlər yaranacaq".

Avropa Oyunları ərəfəsində ləğv olunan 69 saylı marşrut avtobusunun taleyinə gəldikdə, Şəfa xanım bunları dedi: "69 optimallaşdırma dövründə ləğv olunub. Bu marşrut "Köhnə Günəşli"-Tibb Universiteti-"20 Yanvar" marşrutu üzrə hərəkət edirdi. Şəhərdaxili avtobusların sayı çox olduğuna görə, gələcəkdə onun yenidən bərpası düşünülə bilər. Lakin bərpa olunsa belə, şəhərin daxilinə buraxılmayacaq. Çünki "Baku Bus"un iritutumlu avtobusları xəttə buraxılacaq və avtobusların sayı çox olduğu üçün böyük tıxaclar yarana bilər".

❑ **Cavid TURAN**

# Çətirlə tualetə gedən sakinlər, Abid Şərifovun vədi və...

## Dözülməz şəraitdə yaşayan yataqxana sakinləri 3 ildir baş nazirin müavininin verdiyi vədin reallaşacağını gözləyirlər...

**...3-cü mərtəbəyə qalxıb sağa dönürük. Dəhşətli üfunətdən nəfəs almaq mümkün deyil. Qəflətən qolumuzdan tutub kənara çəkirlər. Aralarından biri qorxu içində qışqırır: "Hara gedirsiniz, tavan başınıza uça bilər. Görmürsünüz? Qapının yuxarısına baxın, tavanın bir hissəsi uçub..."**

Digər qapıdan keçirik. Yuxarıdan su axır. Sakinlərdən həyəcan dolu növbəti xəbərdarlıq gəlir: "Çəkilin, kanalizasiya suyudur. Tualetin kanalizasiyası xarab olub, çirkab sular bizim mərtəbəyə tökülür. Bura isə hamamdır. Həm çimirik, həm də qabları yuyuruq. İçəriyə keçmək istəyirsiniz? Stolun üstündəki çətiri götürün..."

...Yox, yanlış anladınız. Biz müharibənin dəhşətini yaşamış xarabalıqdan bəhs etmirik. Bura Hacı Zeynalabdin Tağıyev adına Toxuculuq Kombinatının Xətai rayonu, Cavanşir küçəsi, 10-da yerləşən yataqxanasıdır. Yataqxanada məskunlaşanlar isə illərdir kombinatda çalışanlardır.

Virtualaz.org saytının reportyorları nəinki illər uzunu yaşamağın, heç bircə gecə yatmağın da mümkün olmadığı həmin yataqxanada olub, sakinlərlə görüşüb, onların adı əslində əzab-əziyyət, işgəncə olan problemləri ilə maraqlanıblar.

Bu il martın 17-də yataqxananın 4-cü mərtəbəsində uçqun olub. Uçqun nəticəsində həm 4-cü, həm də 3-cü mərtəbənin mətbəxi yararsız hala düşüb. Sakinlər məsələ ilə bağlı Fövqəladə Hallar Nazirliyinə məlumat veriblər. Nazirlik isə mətbəxləri möhürləyib. Amma sakinlər xəbərdarlığa baxmayaraq mətbəxlərin qapısını açıblar.

Yataqxana sakini Nailə xanım deyir ki, dəhlizə soba qoyaraq növbə ilə yemək hazırlayırlar: "Bizim mərtəbədə 14-15 ailə yaşayır. Bəzən saat 6-da dururuq ki, tez yemək bişirək. Burada hər gün narazılıq, hər gün dava-dalaş olur. İllərin qonşuları şəraitsizlikdən mübahisə edir. Təsəvvür edin ki, hər ailədə ən azı 4-5 nəfər var. İşdən gələnlərə yemək qızdırmaq lazımdır. Birinin yeməyi qurtarır, təkrar xörək hazırlamalıdır. Ona görə də mətbəxin qapısını açdıq. Qorxa-qorxa da olsa yeməkləri orada qızdırırıq".

70 ailənin yaşadığı yataqxanada cəmi 5 hamam var. Amma hamam deyəndə təsəvvürünüzdə suyu, kanalizasiyası, vannası olan hamamları əsla canlandırmayın. Burada tavan və döşəmə dağılıb. Döşəmənin dağılmış yerləri taxta parçaları ilə örtülüb. Azacıq sərt hərəkət olsa, göydən daş düşə bilər. İsitmə sistemi olmadığından evdə su qızdırıb vedrələrlə daşıyırlar.

Yataqxana sakini Cavahir Şıxəliyeva deyir ki, bəzən çimmək üstündə də mübahisələr yaranır: "Kimsə yuyunur, sonra başqa birisi girib qablarını yuyur. Bəzən növbə yaranır. Hamı öz rahatlığını düşünür. Başqa neyləmək olar?!"

Əslində hər ailədə çox yox, ortalama 3 nəfərin olduğunu nəzərə alsaq, deməli, gün ərzində 210 nəfər bu 5 hamamdan istifadə edir. Hərçənd ki, bəzi ailələr 7-8 nəfərdən ibarətdir.

Digər sakin Həqiqət Əliyeva isə nəmişlikdən 8 yaşlı nəvəsinin xəstəlik tapdığını söyləyir: "Yayda istidən nəfəs ala bilmirik. Amma qızda vəziyyət daha dözülməz olur. Evin yarısı göyərir. Yeni otaqlarda otlar bitir. Bu pəncərənin qarşısına baxın. Divarda ağac bitdiyini harada görə bilərsiniz? 8 yaşlı nəvəm aktiv revmatizm xəstəsidir. Ötən həftə xəstəxana şəraitində müalicə aldı. Həkim deyir ki, yaşadığınız yeri dəyişməlisiniz. Necə edək? Axı bizim dərdimizə qulaq asan yoxdur".

Bütün mərtəbələrdə dəhlizlərə şkaflar qoyulub. Otağında yeri olmayan sakinlərin bəziləri yorğan-döşəyi qapının ağzına yığıb. Yataqxana sakini Arzu Abdulrəhimova deyir ki, yeri olmadığından paltarlarını ərzaq yığdığı şkafda saxlayır: "Paltarları soğan-kartofla eyni şkafda saxlayıram. Başqa yolum yoxdur. Hamı bu vəziyyətdədir. Üç oğlum var. Axşamlar yerə döşək atıb yatmaqdan onurğa sütunumda yırtıq əmələ gəlib. Vəziyyətlə bağlı "112"yə müraciət etmişəm. Mənə məktub göndəriblib. Məktubda şikayətimizə Xətai Rayon İcra Hakimiyyəti tərəfindən baxılacağı göstərilib. Amma Xətai Rayon İcra Hakimiyyəti bizimlə maraqlanmır. Sadəcə, hərdən bir gəlib şəklimizi çəkirlər. "Vəziyyətinizdə dəyişiklik yoxdur" deyib gedirlər. Bilmirəm, nəyi gözləyirlər. Ölməyimizi, ya..."

A.Abdulrəhimova onu da söyləyir ki, neçə illərdir tualetə çətirlə girirlər: "Çünki göydən su damır. Yuxarıda yaşayanlara "tualetə getməyin" deyə bilmərik. Çətirlə giririk, sonra çətiri yuyub çıxırıq. Belə yaşamaq olmaz, amma biz yaşayırıq. Uşaqlarımızı evləndirə bilmirik. Gəlini hara gətirək? Kimin övladını özümüzlə eyni şəraitdə yaşamağa məcbur edə bilərik?"

Qeyd edək ki, Cavanşir küçəsindəki 4 saylı yataqxana köçürülüb. O zaman baş nazirin müavini Abid Şərifov yataqxana sakinləri ilə görüşüb. Yataqxananın qəzalı vəziyyətdə olduğunu, onlara tezliklə kompensasiya ödəniləcəyini deyib. Amma həmin gündən 3 il keçib. Sakinlər isə hələ də onun dediklərinin reallaşacağı günü gözləyirlər.

Nazim adlı sakin söyləyir ki, natəmizlikdən yataqxana siçovul yuvasına çevrilib: "Necə dəfə uşaqların ayağını dişləyib. Qonşunun uşağını dişləmişdi, uşaq başdan-ayağa şişmişdi. Bundan sonra JEK-ə getdik, Xətai Rayon İcra Hakimiyyətinə müraciət etdik. Kanalizasiya sistemini düzəltsələr, bəlkə həşəratlar da azalar. Amma kanalizasiya suyu hələ də həyətə axır. Zirzəmilər çirkab su ilə doludur. Digər yataqxana söküləndən sonra burada vəziyyət daha da pisləşdi. Bəzən yeməyin içindən də siçovul çıxır. Hamı xəstəlik tapıb".

Aygün Baxşıyeva adlı sakin isə bildirir ki, neçə illər kombinatın sifarişi ilə... Ev veriləcəyini gözləyə-gözləyə qocalıb: "Keçən dəfə binaya baxmağa gəlmişdilər. Amma qorxularından yuxarı çıxmadılar. Həyətdən baxıb getdilər. Bəs biz insan deyilik? Bizim körpə balalarımızın, övladlarımızın burada yaşamasına razıdırlar, amma özləri qorxurlar".

Bu zaman sakinlərdən biri səslənir: "Siçovullara baxın. Biz desəydik, bəlkə də inanmazdınız. Görürsünüzmü, bizə alışıblar, qovsaq da getmirlər". Ayağımızın altından qaçan siçovullar hamama girir.

"Bir neçə gündən sonra Abid Şərifovun qəbul günüdür. Bəlkə bu dəfə qəbul edəcək. Axı bizim şəraitimizi özü də gözləri ilə görmüşdü. Biz onun vədinə inanmışdıq. Bəlkə siz yazandan sonra xatırlayar. Bəlkə..." - bizi yola sala-sala belə deyən sakinə nə cavab verəcəyimizi bilmirik.

Bəlkə də Abid Şərifov verdiyi vədi doğrudan da unutmayıb...












YENİ MÜSAVAT
N 197 (6225) 7 sentyabr 2015

# Ölkədə benzin niyə ucuzlaşmır?

## Ekspertlərə görə, Tarif Şurasının və ARDNŞ-nin məsələyə dair son açıqlamalarında iqtisadi qanunauyğunluq və sağlam məntiq axtarmağa dəyməz...

**Ölkədə benzinin ucuzlaşmaması ciddi müzakirə mövzusu olaraq qalır. Ekspertlər fərqli səbəblər göstərirlər. Məsələn, iqtisadçı alim Qubad İbadoğlu məsələ ilə bağlı bildirib ki, proseslərdə uduzan vətəndaşlar olacaq:**
**"Hər bir əmtəə həm istehlakçılar, həm də istehsalçılar üçün maksimum faydanı təmin etməlidir. Qiymətləri sərbəst olan əmtəələrin satışından formalaşan fayda bazar tarazlığı, qiymətləri dövlət tərəfindən tənzimlənən əmtəələrin reallaşdırılmasından faydalar isə Tarif Şurası vasitəsilə təmin olunmalıdır.**

Tarif Şurası korporativ maraqlardan çıxış edəndə istehlakçıların hüquqlarının və qanuni maraqlarının dövlət müdafiəsi sistemi işə düşməlidir. Azərbaycanda bu sistemə nəzarəti İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti həyata keçirir. Eyni zamanda, qiymətləri tənzimlənən məhsullar üzrə istehlakçılarla istehsalçılar arasındakı tarazlığı qorumalı olan Tarif Şurasına da İqtisadiyyat və Sənaye naziri rəhbərlik edir".

Ekspertin sözlərinə görə, bir mərkəzdən idarə olunan və iki funksiyasını həyata keçirən dövlət qurumu istehlakçı maraqlarını arxa plana çəkib, şirkət maraqlarını üstün tutduğundan benzinin, qazın, elektrik enerjisinin qiymətinin ucuzlaşacağını gözləməyə dəymir: "Əksinə, hətta mümkündür ki, dövlət şirkətlərinin dünya bazarındakı qiymət ucuzlaşmasından itirdiklərini kompensasiya etmək üçün Tarif Şurası yaxın gələcəkdə daxili bazar qiymətlərinin bahalaşması ilə bağlı yeni qərarlar versin. Odur ki, Tarif Şurasının və ARDNŞ-nin bu məsələyə dair verdiyi son açıqlamalarda nə iqtisadi qanunauyğunluq və nə də sağlam məntiq axtarmağa dəyməz. Çünki ölkədə istehlakçı cəmiyyəti formalaşmayıb, iqtisadiyyatda istehlakçının rolu çox aşağıdır, onların rəyi nəzərə alınmır. Ona görə də mümkün iqtisadi imkanlardan həmişə birmənalı şəkildə təbii və bazar inhisarçıları faydalanacaqlar. Onlar bazar sistemində buna hökmran mövqelərini saxlamaqla, ictimai məhsul və xidmətlərin satışında isə korporativ marağa xidmət edən Tarif Şurası vasitəsilə nail olurlar. Nə qədər ki, bu vəziyyət davam edəcək, o qədər də bu proseslərdən uduzan yenə də biz istehlakçılar olacaq".

Ekspert Samir Əliyev isə qeyd edib ki, Tarif Şurasının benzinin qiymətinin endirilməsinin dünya bazarında neftin qiymətinə bağlı olmamasına dair mətbuata verdiyi açıqlama özünü təkzib etməklə yanaşı, ciddi arqument sayıla bilməz: "Çünki Şura 2013-cü il 3 dekabr ayında benzinin pərakəndə satışı qiymətinin artımını məhz bununla əsaslandırmışdı".

Onun sözlərinə görə, həmin dövrdə Şuranın katibi İlkin Məcidov açıqlamasında qeyd etmişdi ki, son dəfə, yəni 2007-ci ilin yanvarında yanacağın qiyməti müəyyənləşdiriləndə xam neftin dünya bazarlarında qiyməti 1 barrel üçün 57 ABŞ dolları idi. İndi isə artaraq 110 ABŞ dollarına çatıb. "Hazırda neftin bir barreli 50 dollar civarındadır ki, bu da hətta 2007-ci il qiymətindən də ucuzdur. 2007-ci ildə Aİ-95 benzini 60 qəpik, Aİ-92 və Aİ-80 55 qəpik, dizel yanacağı isə 45 qəpik olub. Bu gün daha ucuz neft qiymətləri şəraitində Aİ-92 və Aİ-80 markalı benzinlər 70 qəpik, dizel yanacağı isə 60 qəpikdir. Belə çıxır ki, neftin dünya bazar qiyməti ancaq bahalaşma üçün əsas sayılır.



İndi gələk maya dəyərinə. Açıqlamada qeyd edilir ki, maya dəyərində oturan vergilər dəyişməyib. Bu fikir də reallığı tam əks etdirmir. 2013-cü ilin dekabrında Nazirlər Kabinetinin 333 saylı qərarı ilə neft məhsullarının, o cümlədən benzinin və dizelin qüvvədə olan aksiz dərəcələri artırıldı. Qərara görə, Aİ-95 markalı benzinin aksiz dərəcəsi 101 faizdən 159 faizə, Aİ-92 və Aİ-80 markalı benzinlərin hər ikisi üçün aksiz dərəcəsi 134 faizə qaldırıldı. Dizeldə artım 24 faizdən 57 faizə çatdırıldı. Vergi dərəcəsinin artırılmasının ardınca Tarif Şurası 14 saylı qərar qəbul etdi və dekabrın 3-dən etibarən yanacağı bahalaşdırdı. Deməli, bahalaşmağa səbəb vergi artımı olub. Ancaq üstündən 2 ay keçəndən sonra Nazirlər Kabineti 6 fevral 2014-cü il qərarı qəbul edərək özünün 2 dekabr 2013-cü il qərarına dəyişiklik etdi. Dəyişiklik əsasında bir sıra neft məhsullarına, o cümlədən yanacağa tətbiq edilən aksiz vergiləri əhəmiyyətli dərəcədə azaldı. Dəyişikliyə görə, Aİ-95 markalı benzinə tətbiq edilən aksiz vergisi 159 faizdən 64 faizə endirildi. Azalma digər yanacaq növlərinə də şamil edildi. Aİ-92 benzinində vergi 134 faizdən 65 faizə, Aİ-80-də 134 faizdən 66 faizə endirildi. Dizel yanacağı üçün isə bu hədd 57 faiz 18-ə endirildi. Məsələ ondadır ki, vergi dərəcələri hətta dekabrın üçündəki səviyyədən də aşağı həddə endirildi. Nəticədə bahalaşmağa səbəb olan verginin aşağı salınması belə yanacağı ucuzlaşdıra bilmədi",- deyə o qeyd edib.

Ekspertin sözlərinə görə, burada iki məqam var: "Aksiz vergisi azaldılıbsa, bu halda yanacağın topdansatış qiyməti də aşağı düşməlidir. Çünki Şuranın qərarına görə, neft məhsullarının topdansatış tariflərinə aksiz və əlavə dəyər vergisi, eləcə də təchizat tarifləri daxildir. Bu halda Aİ-92 və Aİ-80 benzinləri üzrə topdansatış qiyməti 580,49 manata, dizel yanacağı üzrə 465,2 manata düşür. Deməli, yanacaqdoldurma məntəqələri Aİ-92 və Aİ-80 markalı benzinlərin hər litrini 44 qəpiyə, dizel yanacağını isə 37 qəpiyə satmalıdır. Əgər aksiz vergisinin azaldılması fonunda pərakəndə satış qiymətləri dəyişməyibsə, deməli, şirkətdaxili tariflər artırılıb və əldə edilmiş vəsait SOCAR-a çatır. Həmçinin, əgər şirkətdaxili tariflər artırılıbsa, bu halda Tarif Şurası yeni qərarla bunu təsdiq etməlidir. Çünki şirkətdaxili tariflər də tənzimlənir.

Bu məqamların heç biri baş verməyib və yanacağın qiymətinin necə əmələ gəlməsi qeyri-müəyyən olaraq qalmaqdadır. Fikrimcə, Tarif Şurası bu məsələyə aydınlıq gətirməlidir.

Sonda onu qeyd edim ki, malın maya dəyərinin şişməsi məsələsi dövlət şirkətləri üçün aktual olaraq qalır. Bu problem təəssüf ki, ölkədə kommunal və nəqliyyat xidməti göstərən bütün dövlət şirkətlərində mövcuddur. Təbii inhisara malik şirkətlər nə qədər ki, xərclərini optimallaşdırmayıb məhsulun maya dəyəri şişməkdə davam edəcək. Belə vəziyyətdə tariflərin artırılması heç zaman xidmətin keyfiyyətini artıra bilməyəcək".

Qeyd edək ki, son bir neçə aydır ki, dünya bazarında neftin qiyməti xeyli ucuzlaşıb. Bunun nəticəsində bir çox ölkələrdə benzinin qiymətində azalmalar var. Ölkəmizə xaricdən idxal edilən premium benzinin (Avro 95) qiymətində isə azalma müşahidə edilmir. Tarif Şurasından azvision.az-a verilən məlumata görə, ölkə ərazisində istehlak olunan benzinin əksər hissəsi, yəni təxminən 95 faizi Aİ-92 markalı benzindir və bu markalı benzin tamamilə daxildə istehsal edilir. Qeyd edilib ki, Tarif Şurası tərəfindən 2013-cü il 3 dekabr tarixindən Aİ-92 markalı benzinin pərakəndə satışı üçün qiymət hər litr üçün 70 qəpik müəyyənləşdirilib.

Dünya bazarında xam neftin qiymətinin ucuzlaşması fonunda Azərbaycanda benzinin qiymətinin aşağı salınmamasına gəlincə, Aİ-92 markalı benzinin qiymətinin formalaşmasına (maya dəyərinə) təsir edən xərclər (xam neftin hasilatına və emalına çəkilən xərclər, qiymətə daxil olan vergilər və s.) qiymətin müəyyənləşdirildiyi tarixdən dəyişməyib: "Eyni zamanda, Aİ-92 markalı benzin daxili istehsal olduğundan dünya bazarında baş verən proseslərin onun qiymətinə təsiri yoxdur. Odur ki, hazırda Tarif (qiymət) Şurasında benzinin qiymətinin dəyişdirilməsi məsələsi müzakirə olunmur". Tarif Şurasından bildirilib ki, hazırda ümumi istehlakda payı çox az, təxminən 4-5 faiz olan "Premium Avro-95" benzini isə Azərbaycana idxal olunur və bu markalı benzinin qiyməti Tarif (qiymət) Şurası tərəfindən tənzimlənmir.

❑ RÖYA

# "Copy-past.az" xəbər verir ki...



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Son bir neçə ilin tendensiyasıdır. Əvvəl iş-gücü olmayan adam gedib qul bazarında dayanardı, indi sayt açır. Necə deyərlər, "toçka" fırladır. Elə media orqanına həmin prizmadan baxdığı üçün də dediklərinin nöqtə qədər dəyəri olmur. Bir az bədii desək, ölkəyə sayt yağışı yağır, çətirimiz yox qurtulmağa. Əlinə bir az pul keçən kimi, balaca bir otaq kirayələyir, üç nəfər "xalturşik" jurnalist tapır. Onlar da, gözünə döndüklərim, "bərkgedən.com saytı filan sayta istinadən xəbər verir ki..." deyə-deyə günlərini yola verirlər. Nə bir eksklüzivlik var, nə özəl müsahibə, nə partlayan xəbər... Hamısı köçürmə, müasir terminlə desək, copy-past janrında fəaliyyət. Oxucu həmin xəbəri ilk mənbədən oxuyacaqsa və oxuyursa, o zaman sizə nə hacət? Və ya siz nə haqla fəaliyyət sektorunuza media, özünüzə də jurnalist, media kapitanı, media meneceri deyirsiz? Etdiyiniz olduqca sadə bir texniki prosesdir axı. Bunu həyata keçirmək üçünsə sıravi texniki işçilər bəs edir...**

Hiylə bir deyil, beş deyil. Baxırsan başqasının xəbərini, qosqoca müsahibəsini dədə malı kimi götürüb qoyublar səhifələrinə. Yazının içində istinad etdikləri saytın şriftlərini kiçik, görünməyən şəkildə yazıblar. Amma məqalənin sonunda öz saytlarının adı böyük hərflərlə qeyd olunub, sanki müəllif bunlarmış kimi. Bilmirsən hansı universitetin jurnalistika fakültəsini oxuyublar, öz təbirlərincə desək, yeni rüzgarı hardan gətiriblər mediaya? Bunlara jurnalistikanın əlifbasını harda öyrədiblər, kimi necə aldatmağa çalışırlar?

Hələ bunlar şükürlüdür. Mediada, lap elə adına ictimai sektor deyilən çevrədə daha "prinsipial" bacı-qardaşlar var. Məsələn, bunlar iddia edir ki, "Yeni Müsavat"ı və musavat.com-u oxumaq lazım deyil, imtina etmək lazımdır, falan-filan. Arqumentləri də özləri qədər bəsit olduğu üçün təkrarlamağa lüzum yox. Amma baxırsan ki, nəinki oxuyurlar, gözlərinə təpirlər. Bunu etiraf etmək üçünsə gərək böyük olasan axı, için böyük olsun. Bu da olmadığı üçün özünü media orqanı adlandıran kəslər marığa yatıb gözləyirlər ki, hansısa qeyri, copy-past.az saytı sizin yazdığınız özəl xəbəri, müsahibəni yaysın, bunlar da ondan götürüb yaysınlar. Filan saytın musavat.com-a istinadən verdiyi xəbərə görə.... Prinsipiallığınıza quzu kəssinlər sizin. İndi nə oldu? Siz öz əqidənizdən, yolunuzdan, mübarizliyinizdən dönmədiniz, eləmi? Xəbərlə, hadisə ilə prinsip apararlarmı?

İmtina etmək bir mədəniyyətdir əslində. Həm də böyük mədəniyyət. İnsanın iradəsini, gücünü sınağa çəkən bir şey. Sən özünə hansısa bir media orqanını izləməməklə bağlı veto qoyursansa(ki, xəbərlə çalışan adamın belə prinsipiallığı çox gülüncdü), bu vetoya əməl etməlisən. Məsələn, saytlar var ki, onların əksər özəl xəbərlərindən yalan, dezinformasiya, "xaltura", bir çox hallarda isə çirkli pul iyi gəlir. Onların xəbərlərini iqnor etmək olar. Amma hətta onların uydurmalarını belə izləmək maraqlıdır. "Mətbəx"də nələrin olduğunu öyrənmək üçün.

Yalan, uydurma demiş, son bir həftə bəzi media orqanlarının əzrayılla direşməsi də uzaqdan çox gülməli görünür. Gündə bir neçə dəfə kamança ustası Habil Əliyevi "öldürüb-dirildən" jurnalistlərimiz bununla nə qədər İP toplayırlar, bilinməz. Amma bir gün o ip onların boğazına çox pis keçəcək. Yalançı çoban misalı, bir gün dediklərinə heç kim inanmayanda kimə üz tutacaqlarını da bilməyəcəklər. Yalan xəbəri cəmiyyətə çatdırmaq o qədər də çətin deyil. Nə var ki? Bir bərkgedən sayt dəqiqləşdirilməmiş xəbəri verəndən 10 dəqiqə sonra bütün saytlar ondan köçürdüyü üçün cəmiyyətə həmin xəbər həqiqətmiş kimi təqdim olunacaq. Bəs sonra? Bir-iki dəfə belə təcrübəsi olan saytı kim ciddi informasiya mənbəyi kim qəbul edəcək?

"Filankəsin yandırıb-yaxan fotoları", "Bəhmənkəsin gizli görüntüləri. Foto-Video" başlıqları ilə hara qədər, kimə qədər... getmək mümkündür? İndi onlar bizə gündəlik ziyarətçi sayını, statistikalarını sübut kimi təqdim edə, "biz pisiksə niyə oxuyurlar" deyib yaxa cıra bilərlər. Amma bəlli təyinatı(!) olan saytların gündəlik ziyarətçi sayı da pik həddədir. İndi onlara da media orqanımı deyək? Həmin məntiqlə onlar da "informasiya" yayırlar axı...

Ciddi olun, bəylər. Yaşlı bir kamança ustasını o biri dünyaya yola salmaq üçün göstərdiyiniz izafi çaba artıq gülməli yox, zavallı görünür. Ən azı süni prinsipiallığınız qədər.

# Banklar müştərilərini sürətlə lombardlara uduzur

## İqtisadçı ekspert: "Kreditlərin verilməsində yeni mexanizmin tətbiqi lombardların xeyrinə işləyib..."

**Manatın ucuzlaşmasından sonra bank sektorunda yaranan gərginlik, problemli kreditlərin həcminin artması bankların kredit siyasətinin sərtləşməsinə səbəb oldu. Artıq banklardan kredit almağın şərtləri əvvəlkindən daha ağırdır.**

Sadə insanlar bir çox hallarda bankların tələb elədiyi şərtləri təmin edə bilmədiyindən, borc pul üçün lombardlara üz tuturlar. Qeyd etdiyimiz səbəblərdən son zamanlar lombardların müştərilərinin sayı da hiss olunacaq dərəcədə artıb.

Bəs, görəsən bankların manatla kredit verməkdən imtina etdiyi halda, lombardlar manatla kredit verirmi və borc faizlərində artım varmı?

Məsələ ilə bağlı paytaxtın "Neftçilər" metrostansiyası yaxınlığında yerləşən bir neçə lombarda baş çəkdik. Daxil olduğumuz ilk lombardın direktor müavini adının çəkilməsini istəməsə də, bazardakı mövcud durum haqqında məlumat verdi. Bildirdi ki, bankların əksəriyyəti dollarla kredit verdiyindən vətəndaşlar daha çox lombardlardan manatla borc götürməyə üstünlük verirlər: "Hazırda lombardlarda vəziyyət yaxşıdır. Əhalinin son 2 ayda lombardlara daha çox üz tutur. Bunun səbəbi isə bankların əksəriyyətinin dollarla kredit verməsidir. Bankların bir çoxu əhalinin maddi vəziyyətini düşünmür və yalnız dollarla kredit verirlər. Təbii ki, ehtiyacı olanlar məcbur qalıb dollarla kredit götürürlər. Lakin yaxın müddətdə dolların yenidən bahalaşacağı ehtimalı haqqında xəbərlər dolaşır. Bu səbəbdən insanlar dollarla kredit götürməkdən qorxurlar. Bu isə əhalinin banklardan uzaqlaşıb, lombardlara üz tutmasına səbəb olur".










Müsahibim onu da bildirdi ki, qızılın ucuzlaşması səbəbindən onlar da borc faizlərində dəyişiklik ediblər. Hazırda lombardlarda kredit 6-10% arasında verilir. Borcların məbləği isə çox zaman 500-1000 manat arasında olur. Lakin 100-200 manat borc götürənlər də olur. Bəzi hallarda yüksək məbləğdə kredit götürmək istəyən insanlar lombardlara müraciət edir.

Yollandığımız başqa bir lombardda çalışan işçi də deyir ki, lombardları saxlamaq üçün yeni bir metoddan istifadə edir: "Lombardlarda son aylar canlanma müşahidə olunur. İndiki vaxtda insanlar yalnız manatla pul götürmək istəyir. Biz də riskə gedərək banklardan dollarla kredit götürüb, onu manatla müştərilərə borc veririk. Düzdür, çox riskli olsa da, lombardı ayaqda saxlamaq üçün buna məcburuq. Banklardan götürüyümüz dolları manata çevirib əhaliyə manatla əmanət veririk. Bu yolla müştərilərimizi saxlamağa çalışırıq".

Həmsöhbətim onu da bildirdi ki, onların istifadə etdiyi bu metod bankların işinə mənfi təsir edir: "Lombardların bu tərzdə əhalini cəlb etməsi, banklara sərf eləmir. Əvvəllər banklara üz tutan müştərilər artıq lombardlara üz tutur. Belə desək, banklar müştərilərini itirirlər. Bu, yalnız dollarla kredit verən banklara şamil olunur. Əgər bankların bizim lombard işçisi olduğumuzdan xəbərləri olsa, kredit verilməsini dayandırarlar. Biz bu səbəbdən öz adımıza və qohumların adına sadə vətəndaş kimi kredit götürürük".

Lombard işçiləri deyir ki, adətən müştərilərə borc 3 ay müddətinə verilir. Qızılın hər qramı üçün 20-22 manat nəzərdə tutulur. Bəzən müştərilər borcu gecikdirsələr də, onların qoyduğu girovlar dərhal satışa çıxarılmır, bəzən 2-3 ay möhlət verilir. Həmsöhbətlərim deyir ki, son zamanlar iş yerlərinin azalması, insanların gəlirlərini itirməsi onların işinə də mənfi təsir edib. Belə ki, indi borcu vaxtında qaytara bilməyənlər əvvəlki dövrə nisbətdə daha çoxdur: "Bəzən insanlar təyin olunan müddət bitəndə özləri gəlib etiraf edirlər ki, borcu ödəməyə imkanları yoxdur. Biz də onların razılığı ilə girovu satırıq. Ancaq çox zaman onlara əlavə möhlət veririk ki, borcu qaytarsınlar".

İqtisadçı ekspert Samir Əliyev də mövcud durumu təhlil edərkən bildirdi ki, lombardlara tələbatın artması ötən ildən başlayıb: "Mərkəzi Bank banklara arayışsız kreditlərin verilməsini qadağan etdikdən sonra, bu şərtlərə cavab verməyən müştərilər kredit almaq imkanından məhrum oldular və lombardlara üz tutmağa başladılar. Kreditlərin verilməsi ilə bağlı yeni mexanizmin tətbiqi də lombardların xeyrinə işləyən bir durum oldu. Maaşı az olan və ya başqa banklara borcu olan insanlar da kredit üçün lombardlara müraciət edirlər. Lombard faizləri isə, hər zaman banklardan yüksək olub. Buna baxmayaraq tələbat getdikcə daha çox artacaq".

Ekspert lombardların fəaliyyətini tənzimlənməməsi məsələsinə də toxunaraq, istehlakçıların bu məsələdə problemlə üzləşdiyini də bildirdi: "Problemlərdən biri də odur ki, bizdə girov mexanizmi ilə bağlı mexanizm qanunvericiliklə tənzimlənmir. Girovların dəyəri müstəqil bir qurum tərəfindən dəyərləndirilməlidir. Ancaq bizdə girova lombard nümayəndəsi qiymət qoyur və real dəyərindən dəfələrlə ucuz götürülür. Bunu ona görə belə edirlər ki, borc sahibi borcunu qaytara bilməyəndə həmin qızılı rahatca satıb o məbləği geri qaytara bilsinlər.

Xarici ölkələrdə bizdə olduğundan fərqli mexanizm tətbiq olunur. Məsələn, Almaniyada girovun dəyərinin 2-3 misli qədər kredit götürə bilərsiniz. Bizdə isə ən yaxşı halda 50-70 %-i həcmində borc almaq mümkündür. Lombardlarda isə bəzən qızılın real dəyərinin 30 %-i qədər kredit verilir. Bu, çox böyük bir problemdir və istehlakçıların hüquqları pozulur. Bunun kökündə isə lombardların fəaliyyətinin qanunvericiliklə tənzimlənməməsi durur. Lisenziyalaşdırılmamış fəaliyyət göstərən bu qurumların faəliyyətinə heç kim nəzarət etmir".

**❑ Məğrur Salmanov**
**'Fotolar müəllifindir**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Yuxusuzluq və yuxu pozuntuları**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
- **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
- **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
- Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**
**Əlaqə üçün: 070 335 90 15**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Bakıda iki qardaş polisi döyərək xəstəxanalıq etdi

**Bakıda iki qardaş Post Patrul Xidmətinin əməkdaşını döyüblər. Qafqazinfo-nun məlumatına görə, şahidlər musavat.com-a bildiriblər ki, hadisə Yasamal rayonu, Zərgərpalan küçəsində baş verib.**

Küçədə ictimai qaydanı pozan iki şəxsi Post Patrul Xidmətinin əməkdaşı intizama dəvət edib. Bu zaman polis əməkdaşı həmin iki şəxs tərəfindən döyülüb. Döyülən polis serjantı 1988-ci il təvəllüdlü Vüqar Şahverənov olub.

Polisi döyənlər Astara rayon sakinləri olan qardaşlar, 1993-cü il təvəllüdlü Fərid Hənifəyev və 1994-cü il təvəllüdlü Elməddin Hənifəyevdir. Polis əməkdaşı sifətindən bir neçə yumruq zərbəsi alıb. Qardaşlar tərəfindən döyülən polis xəstəxanaya aparılıb.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 197 (6225) 7 sentyabr 2015

# And olsun bu yalan detektoruna ki...

## Dünya yalançıları bu üsulla zərərsizləşdirmək istəyir, amma...

**“İnanmırsansa, yalan detektoru gətirilsin, danışaq, kim yalan deyirsə, ortaya çıxsın...” Daha öncələr insanlar bir-birinin yalan danışıb-danışmağını and içmək, Qurana əl basmaqla yoxlayırdısa, indi bunun yerini müasir texnologiyanın xarüqələri tutub. Yalan detektoru adlanan cihaz insanın yalan danışıb-danışmadığını müəyyənləşdirir. Bundan kimlər, necə istifadə edir? Sözügedən aparatı aldatmaq olarmı?**

### Yalançını ifşa etmək üçün “düyü üsulu”

Bu suallara cavab vermədən öncə əvvəlcə, heç şübhəsiz ki, yalan detektorunun tarixinə nəzər salmaq lazımdır. Kimin ağlına gəlib bu aləti yaratmaq? Zərurətin yaranma tarixçəsi necə olub?

Tarixə nəzər etsək, yalanı tanıma, üzə çıxarma və ifşa olunma üçün müxtəlif vasitələrdən istifadəni görərik. Bilirik ki, yalan danışan zaman insanın simasında və daxili orqanlarında müxtəlif, dəyişik funksiyalar baş verir. Qədimdə Yunan kəndlərində yalan düyü ilə yoxlanılardı. Şübhəlinin ağzını quru düyü ilə doldurub, cinayəti edib etməməsini soruşardılar. Əgər sual-cavabdan sonra şəxsin ağzındakı düyü quru qalardısa, demək yalan danışır. Hind kəndliləri təqsirləndirilən şəxsə cinayətlə bağlı sual verərdi. Sual zamanı o astaca qonq çalmalı və “hə” “yox”u başıyla təsdiqləməliydi. Qonqun səsi yüksək çıxardısa, demək həyəcanlanıb bərkdən vurub və yalan danışır. Maraqlı adətlərdən biri də Afrikada olub. Belə ki, şübhəliləri düzüb onların əlinə xüsusi zərif quş yumurtası verilirmiş. Onlar bu yumurtaları bir-birinə astaca, amma tez-tez ötürməliymiş. Kim həyəcanlanardısa, əlindəkini qırardı və günahı üzə çıxardı...

### Aləti 1877-ci ildə İtaliyada kəşf etdilər

Elm və texnikanın inkişafı sürətləndikcə, yalanı aşkar etmə cihazları dövrəyə girdi. Ən tanınmışı “yalan detektoru” adlanan cihazdır. Hansı ki, başlanğıcını 1877-ci ildə italyan fizioloqu Andjelo Mosso özünün “pletizmoqrafa” (qan damarlarının təchizatı və nəbzi ölçmək) aparatı ilə qoydu. Bu aparatdan yalanı üzə çıxarmaq üçün ilk istifadəni italyan kriminalisti Çezare Lombrozo etdi. Artıq 1881-95-ci illər arasında Çezare özünün “Qatil insan” kitabında da qeyd etdiyi kimi, oğurluq və cinayət işlərində bu aparatdan istifadəni ön plana çəkdi. Çezarenin bu aparatla ən böyük uğuru 1902-ci ildə gənc bir qızın təcavüz və qətlinin səbəbkarını tapmağı oldu.

1921-ci ildə aparat daha da təkmilləşdi və insanın dəri rənginin dəyişikliyini, nəfəs borularının tezliyini də müəyyən etməyə başladı. Bunun başlanğıc istifadəsini isə Kaliforniya ştat polisi Con Lorson etdi.

Son 45-50 il ərzində aparatın bütün funksiyaları birləşib müasir kompüter kimi formalaşıb. Detektor aparatının ən aktiv istifadəçisi ABŞ-dır. Artıq orada fərdlər düz danışdığını sübut etmək üçün pul xərcləyib detektora oturular. Lakin ABŞ-dan fərqli olaraq, Kanadada məhkəmə salonlarında detektor istifadə olunmur. Koreya və 4-cü yerdə Yaponya durur ki, bu aparatın ən aktiv istifadəçi ölkəsidir. Amma yaponlar qocalara, narkotik-içki-psixi problemi olanlara, xəstələrə, detektor cihazından keçməyə qəti qadağa qoyub. Almaniya isə ümumilikdə detektordan keçməyə 1954-cü ildə qadağa qoyub. 1984-cü ildə Türkiyədə bu cihazdan aktiv istifadəyə başladı. Lakin Türkiyədəki mütəxəssislər Amerikada yetişdirilir. Ölkəmizdə tam ixtisaslı mütəxəssis olmadığından hələ ki, bizdə cihaz tam istifadəsini tapmayıb.

### Detektorun yeni növü - möcüzədir ki, var

Baffalo Universitetinin amerikalı alimləri həqiqəti gözlər vasitəsilə bilən yalan detektorlarının yeni növünü yaradıblar. Yaradılmış xüsusi proqram veb-kamera vasitəsilə sınağa çəkilən insanın göz almalarının hərəkətini qeyd edir, onları təhlil edir və fikirlərin yalançılığını 80%-dən yuxarı dəqiqliklə müəyyən edir. Yeni üsul 40 könüllü üzərində sınaqdan keçirilib.

Onları əvvəlcə təcrübəli müstəntiq bu və ya digər fikirlərin doğruluğunu təyin etmək üçün “sorğu-sual edib”, sonra isə yalan detektoru sınaqdan keçirilib. Təcrübənin sonuna yaxın məlum oldu ki, müstəntiq 60% halda, lakin yalan detektoru 82,5% halda yalanları müəyyən edib.

Qurğunun yaradıcıları hesab edirlər ki, onu hələ çoxlu könüllülər üzərində sınaqdan keçirmək lazımdır, lakin qurğunun dəqiqliyi artıq indidən heyrətləndiricidir.



## Yalan detektorunun toruna düşənlər və aparata kələk gələnlər də var

### Bizdə vəziyyət fərqlidir - ermənilərə qarşı tətbiq olunacaq

Azərbaycanlıların və regionun digər xalqlarının mədəni irs nümunələrinə ermənilərin əsassız iddiaları olduğu elmi üsulla sübut edilərək bunun qarşısını almağa imkan verən yeni texnologiyanın yaradılmasına başlanılıb. Bu barədə bir neçə il öncə keçirdiyi mətbuat konfransında Prezident Administrasiyasının sektor müdiri Fuad Axundov məlumat verib. Azərbaycan alimləri erməni saxtakarlıqlarını aşkar etmək məqsədilə “yalan detektoru” icad ediblər. Bu barədə məlumat verən Prezident Administrasiyasının sektor müdiri Fuad Axundova görə, 18 qədim erməni lüğəti, o cümlədən digər xalqların lüğətləri araşdırılıb. Bütün nəticələr ermənilərin Azərbaycanın mədəni irs nümunələrinə olan iddialarının əsassız olduğunu göstərib. Prezident Administrasiyası rəsmisi layihə ilə bağlı yaxın vaxtlarda veb-saytın fəaliyyət göstərəcəyini və sənədli filim çəkiləcəyini də deyib. Fuad Axundov onu da vurğulayıb ki, əslində bu yaxınlarda Ermənistanın lavaşı erməni çörəyi, balabanı isə erməni xalq musiqi aləti kimi UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil etmək cəhdi Azərbaycan alimlərini qədim erməni lüğətlərinə müraciət etməyə sövq edib. Həmin lüğətlərdə hər iki anlayış ümumiyyətlə yoxdur. Azərbaycan alimlərinin mədəni irsə aid olan növbəti araşdırmaları haqqında da bu yaxınlarda məlumat veriləcək. Əldə olunan nəticələrin YUNESKO-da müzakirəyə çıxarılacağı ilə də bağlı iş aparılır. Fuad Axundov bundan əvvəl reallaşan və böyük əks-səda doğuran “İrəvan Qala” layihəsinə də toxunub. O, Ermənistan hökumətinin İrəvanın mərkəzindəki ərazini şəhərin tarixi hissəsi kimi təqdim etmək üçün keçən əsrin əvvəllərində aid 20-yə yaxın binanın tikintisindən ibarət “Köhnə şəhər” layihəsinin həyata keçirilməsinə dair planlarını gülünc adlandırıb. Çünki Qafqaz 20-ci əsrdən əvvəl də həyatın mövcud olduğu qədim regiondur. Bu layihənin məqsədi tarixi dəyişdirmək, saxtalaşdırmaqdan ibarətdir. Alimlər də sübut edir ki, Azərbaycan və Gürcüstan paytaxtlarının öz tarixi yerləri var, lakin İrəvanda köhnə tarixi mərkəzdən əsər-əlamət qalmayıb, bu isə Azərbaycan mənşəli tarixi abidələrin ermənilər tərəfindən məqsədyönlü şəkildə məhv edilməsini göstərir. Qafqaz Tarixi Mərkəzinin direktoru Rizvan Hüseynov və əməkdaşı Elşad Əlili bu istiqamətdə xarici alimlərlə də əməkdaşlıq etmək niyyətində olduqlarını deyiblər.

Digər detalları da unutmamaq. Kadr məsələlərini həll edərək insanın müəyyən mənəvi keyfiyyətlərini öyrənmək üçün bir çox ölkələrdə korrupsiyaya qarşı mübarizədə poliqrafın imkanlarından profilaktik element kimi istifadə olunur. İşə qəbul zamanı “yalan detektoru”nun imkanlarından dünyanın 103 ölkəsində istifadə olunur. Həmçinin postsovet məkanında - Rusiya, Belarus, Moldova, Latviya kimi ölkələrdə tətbiq olunur. Bu cür test üsulu ABŞ-ın 26 xüsusi xidmətin əməkdaşları üçün məcburidir.

### Sığorta şirkətlərinin “sağ əli” - müştəri yalan danışırmı?

Maraqlıdır ki, sığorta şirkətləri sığorta dələduzları ilə mübarizə aparmaq üçün sərt üsullara əl atmağa məcbur olublar. Bunlardan biri müştərilərin yalan detektoru vasitəsilə yoxlanmasıdır.

“Allianz” şirkətinin Çexiya filialının nümayəndələri bu ildən başlayaraq, sığorta hadisələrinin müəyyənləşdirilməsi zamanı qeyd olunan səs analizatorundan istifadə edəcəklər. Şirkət bu üsulla sığorta dələduzlarına qarşı mübarizə aparmaq fikrindədir. Yalan detektoru kimi işləyən cihazdan yalnız müştərinin dələduzluğa əl atması barədə şübhə edildikdə istifadə olunacaq.

Şirkətin sığorta dələduzluqlarının aşkarlanması xidmətinin (!) direktoru Lüdvik Boxman bildirib ki, İsraildə istehsal olunan bu cihaz ilk əvvəl hərbi məqsədlər, insanların yalan danışdığı zaman səs strukturunun dəyişməsinin müəyyən edilməsi üçün nəzərdə tutulmuşdu. Cihaz səs dalğalarını rəqəmsal formaya çevrilərək müştərinin yalan və ya doğru danışdığını müəyyən edir".

Qeyd edək ki, sığorta şirkətləri sığorta ödənişindən boyun qaçırmaq məqsədilə bir qayda olaraq, müştəriləri dələduzluqda və qərəzdə ittiham etməyə çalışırlar. Buna avtomobil oğurluğu hadisələri zamanı və ya mənzil, mağaza, biznes obyektləri ilə bağlı sığorta hadisələri, əsas etibarilə oğurluq halları zamanı əl atırlar.

Adı çəkilən cihaz isə yalnız müştərinin razılığı əsasında istifadə edilə bilər. Hərçənd ekspertlər hesab edir ki, bu tip detektorlar yüz faizli nəticələrə gətirib çıxarmır və sığortaçının eşitmək istədiyi cavab heç də həmişə həqiqətə uyğun gəlmir. Ona görə də ekspertlərin fikrincə, hətta sığortaçı tələb etsə də, sığortalının detektor yoxlanışından keçməkdən imtina etmək hüququ var. Hüquq elmi nöqteyi-nəzərindən də yalan detektoru yetərli dəlil hesab oluna bilməz.

### Yalan detektorunu da aldatmaq olar - necə?

Bir məqamı isə unutmaq olmaz. Belə ki, yalan detektorunun müsbət cəhətləri olsa da, nəticəsinə 100 faiz əmin olmaq düzgün deyil. Yalan detektorunu müxtəlif üsullarla aldatmaq olar. Sualların hamısına qeyri-ciddi, zarafatyana, mənasız cavablar verməklə poliqrafın işini dolaşdırmaq olar. Düzgün cavab verdikdə isə poliqraf sizin reaksiyanızı müəyyənləşdirir və bütün cavablarınızı həmin reaksiya ilə müqayisə edir. Lakin poliqrafa qarşı mənasız və zarafatyana cavablar verən şəxs digərlərində şübhə doğurur.

Yalan detektorunu aldatmaq üçün üç əsas üsul var. Üsullardan biri sensor analizatorların həssaslığını aşağı salmaqdır. Bunun üçün yalan detektorundan keçməzdən bir gün əvvəl spirtli içki içmək lazımdır. Spirtli içki qəbul etdikdən sonra ertəsi gün insanın həssaslığı azalır, reaksiyaları tormozlanır. İnsanın bu cür reaksiya verməsi yalan detektoruna onun cavablarının həqiqiliyini düzgün müəyyənləşdirməyə imkan verməyəcək.

Müxtəlif dərman və tibbi vasitələr var ki, onların vasitəsilə də yalan detektorunu aldatmaq olar. Bu, hipertoniya xəstəliyi üçün nəzərdə tutulan, arterial təzyiqi aşağı endirən və adrenalinin yaranmasının qarşısını alan dərman preparatları ola bilər. Bu cür dərmanları istifadə edərkən ehtiyatlı olmaq və bədənin həmin dərmanlara hansı reaksiyanı verəcəyini bilmək lazımdır. Arterial təzyiqi aşağı olan şəxslərə belə dərmanları qəbul etmək təhlükəlidir. Bu dərmanları içərkən həm də dərmanların təsir müddətini də nəzərə almaq lazımdır. Belə ki, yalan detektoru ilə yoxlamadan keçəndə suallara cavab verməyə başlayandan 40-50 dəqiqə sonra dərman qanda maksimuma çatmalıdır.

Üsullardan biri isə bir neçə gün yuxusuz qalmaqdır. Bu cür vəziyyətdə olan insanın bütün suallara cavabları eyni və zəif reaksiya ilə müşayiət olunacaq. Fiziki məşğələlərdən sonra hədsiz yorğunluq, uzun müddət aclıqdan üzülmə də suallara qarşı yaranan fizioloji reaksiyaları zəiflədir. Digər bir üsul isə bütün emosiyaları boğmaqdır. Əgər buna müvəffəq olsanız, yalan detektoru yalan cavabları qeyd edə bilməyəcək. Emosiyaları idarə etmək çox çətindir və hər kəsdə bu alınmır. Diqqəti başqa obyektə yönəldərək, suallara əhəmiyyət verməyərək, yalan detektoruna fikir verməyərək buna nail olmaq olar.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 197 (6225) 7 sentyabr 2015

# 101 yaşında bələdiyyə başçısı



Bələdiyyə başçısı olmaq üçün lazımi qədər namizəd tapa bilməyən Norveç Xristian Xalq Partiyası 101 yaşlı keçmiş bələdiyyə başçısını siyahıya əlavə edib. Nils Dovre adlı kişi 1950-ci ildən bu günə qədər Norveçin Nard-Aurdal bölgəsində siyasətlə məşğuldur. Partiya həmin bölgədə bələdiyyə başçısı olmağa namizəd tapmadığı üçün Dovredən yenidən bələdiyyə başçısı olmasını xahiş ediblər. Partiyasından dəstək almayan Dovrenin seçilməsi isə olduqca çətindir. VG qəzetinə müsahibə verən Dovre qalib gəlsə belə çalışa bilməyəcəyini açıqlayıb. Partiyanın rəhbəri Knut Arild isə Dovredən razı olduğunu bildirib. O, Dovrenin partiyası üçün önəmli olduğunu və sağlam xarakterə sahib olduğunu dilə gətirib.



## Arvadını və oğlunu qəfəsdə saxlayan adam

Argentinada psixoloji problemləri olan arvadını və oğlunu iki ildir qəfəsdə saxlayan kişi həbs edilib. Müstəntiq Alejandro Pellegrini Madr del Plata şəhərində yaşayan 66 yaşlı Eduardo Oviedonun iki uşağının şikayətindən sonra onun evinə basqın edib. Basqın zamanı Oviedonun 61 yaşlı arvadını və 32 yaşlı oğlunu qəfəsdə saxladığı ortaya çıxıb. Polislərin sözlərinə görə, çirkli bir qəfəsdə saxlanılan qadın və oğlu zibillər arasında yaşayır, heyvan yemi ilə bəslənirmişlər. “Gözlərimizə inana bilmədik. Qadın və oğlu bir insanın yaşaya biləcəyi ən pis şəraitdə saxlanılırdı” deyən polislər Oviedonun arvadını və oğlunu gecə bağlı otaqlardan birində gizlətdiyini və onlara it yeməyi verdiyini də bildiriblər. Yerli mediadan yayılan xəbərlərə görə, digər uşaqlar da atalarından qorxduqları üçün polisə xəbər verməyiblər. Sorğu zamanı danışmayan Oviedo həbs edilib.

# Mayonez və ketçupun dəhşətli zərərləri

Marketlərdə satılan hazır mayonezi davamlı olaraq yeyir və çox sevirsinizsə, 2 həftə ərzində heç yemədiyiniz zaman belinizin 1-2 sm incəldiyini müşahidə edəcəksiniz. Kartof qızartması, sendviç, salatlarda istifadə etdiyiniz hazır mayonezlərin tərkibinə bir çox dad çoxaldıcı yağ kimi zərərli və təbii olmayan maddələr qatılır. Məlum olduğu kimi, mayonez təkcə yağ və yumurtadan hazırlanır. Amma şirkətlərin satışa çıxardığı mayonezlər bu qədər məsum deyil. Mayonezi istifadə etmək əvəzinə qatıq və ya süzmə istehlak etməyiniz sağlamlığınız üçün daha faydalı olar. Alimlərin araşdırmaları nəticəsində rəngləndirici maddə daşıyan yemək və içkilərin xüsusilə uşaqların zəka səviyyəsinə, zehni qabiliyyətinə mənfi təsir etdiyi ortaya çıxıb. Rəngləndirici, qoruyucu maddələr insan sağlamlığını təhdid edir və xərçəngə yaxalanma riskini artırır. Genetikası ilə oynanılan bütün qidalar insan sağlamlığı üçün zərərlidir. Ürək xəstələri üçün hədsiz dərəcədə zərərli olan mayonez ürək döyüntüsünün zəifləməsinə yol açır. Mayonezin digər mənfi təsiri ürəklə yanaşı, xolesterolu da yüksəltməsidir. Uşaqların və gənclərin çox sevdiyi ketçup və mayonez üçün başqa təbii həll yolu varmı? Bunun yeganə yolu evdə ketçup və mayonez hazırlamaqdır. Tərkibindəki əsas qatqı yağ olduğundan yüksək kaloriyə malikdir. Bir xörək qaşığı mayonez 102 kaloridir. Lakin mayonezin dəriyə və saçlara bir çox faydaları var. Mayonez saçlar üçün yaxşı nəmləndiricidir. Ancaq saç üçün istifadə ediləcək mayonez mütləq evdə hazırlanmalıdır.





## İt südü ilə yaşayan uşaq

Ailəsi tərəfindən tərk edilən uşağın itdən süd əmərək yaşaması hər kəsi şoka salıb. Çilidə 2 yaşlı uşağın hamilə bir it tərəfindən əmizdirilərək yaşaya bildiyi məlum olub. Dağılmış bir iş yerində çirkli və çılpaq halda tapılan uşaq qısa müddət sonra xəstəxanaya çatdırılıb. Normal yedizdirilməyən uşağın bədənində bitlər olduğu və dəri xəstəliyinə tutulduğu da məlum olub. Reina adlı bir itdən süd əmərək həyatda qalan uşağın anası sərxoş halda tapılaraq xəstəxanaya gətirilib. Uşağını atan ana ona fiziki təzyiq göstərmədiyi üçün həbs edilməyib. Uşağın atası tapılsa da o, uşaq və anası ilə bütün əlaqələrini kəsdiyini bildirib. Uşaq dövlət tərəfindən himayəyə götürülüb.




**QOÇ** - Maliyyə problemlərinizin artmasından narahat olmayın. Çünki bu gündən büdcənizdə kifayət qədər irəliləyiş olacaq. Bugünkü vaxtınızı isə bütünlüklə dua və ibadətə həsr edin.

**BUĞA** - Qəlbən darıxdığınız bir neçə şəxslə rastlaşacağınız gözlənilir. Bu bölümə əsasən qohumluq və dostluq görüşləri şamildir. Öz gücünüzə güvənin. Bu gün uzaq yola çıxmaqdan vaz keçin.

**ƏKİZLƏR** - Bəri başdan yeni və riskli işlərinizi təxirə salmağa çalışın. Saat 15-ə qədər vaxtınızı adi işlərə həsr edin. Yoxsa xoşagəlməz olaylar baş verəcək. Sonrakı müddətdə aktivləşmək olar.

**XƏRÇƏNG** - Yeni əlaqələrə başlamaq üçün ideal gündür. Müştərək fəaliyyətdə uğurlara yetişmək istəyirsinizsə, vaxt itirməyin. Gün ərzində Ayın bürcünüzdəki neqativ təsirini də yaddan çıxarmayın.

**ŞİR** - Qətiyyətsiz hərəkətlərə yol verməyin. Hər hansı riskə getməyin, yeni işlərə başlamayın. Uzaq qohumlarınızla mütləq əlaqə saxlayın. Axşama yaxın təzə xəbər eşidəcəyiniz gözlənilir.

**QIZ** - İxtiyarınızda olan bu təqvimi daha çox işə həsr etməlisiniz. Yeni layihələr üzərində baş sındırmağa dəyər. Qarşılıqlı müzakirələrdə təşəbbüskarlığı əlinizə alın ki, qalib olasınız.

**TƏRƏZİ** - Səhhətinizlə bağlı müəyyən problemləriniz hiss olunmaqdadır. Havalar ürəkaçan olsa, gəzintiyə çıxmağa, qonaq getməyə dəyər. Ağlınız kəsməyən digər dəvətləri isə təxirə salın.

**ƏQRƏB** - Səhər saatlarından səhhətinizə xüsusi diqqət ayırmalısınız. Buna baxmayaraq, fəaliyyətlə bağlı aktivliyiniz də müşahidə olunacaq. İstənilən qərarınızda ədalətli və obyektiv olun.

**OXATAN** - Saat 12-dən sonra maraqlı hadisələrlə rastlaşma ehtimalınız var. Axşam qonaqlıqlarda iştirak etmək şansınız da olacaq. Bu gün hansısa falçı və cadugərə müraciət etməyin.

**OĞLAQ** - Ulduzlar xəbər verir ki, bu günü necə keçirsəniz, qarşıdakı günlərindəki ovqatınız da həmin minvalla ötüşəcək. Unutduğunuz adamlarla əlaqələrinizi dərinləşdirin ki, ruzisiz qalmayasınız.

**SUTÖKƏN** - Ailə-sevgi münasibətlərində mübahisələriniz gözlənilir. Təmkinli olun, kənar müdaxilələrə aludə olmayın. Tərəf-müqabilinizlə mehriban davranın. Səhhətinizə də fikir verin.

**BALIQLAR** - Təəssüf ki, bu təqvimi bir qədər problemlə qarşılayacaqsınız. Əlalxüsus da saat 16-ya qədər ayıq-sayıqlığınızı artırmalısınız. Şəxsi problemlərinizi təkbaşına həll edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Mağazada həyatını itirənə 5,4 milyonluq təzminat

Dünyanın ən məşhur geyim markası mağazada həyatını itirən uşağın ailəsinə 5,4 milyon dollar təzminat ödəməyi qəbul edib. Bicester qəsəbəsindəki mağazada 2013-cü ildə baş verən qəza zamanı Austen Harrison adlı uşaq qırılan şüşənin qalıqları altında qalaraq can verimişdi. Atası paltar geyərkən mağazadakı güzgünün qarşısında gözləyən uşağın beynində travma əmələ gəldiyi üçün onu xilas etmək mümkün olmadı. Firma rəhbərliyi şüşənin heç bir yerə bağlı olmadığını, məhz bu səbəbdən uşağın ölümünə səbəb olduğunu qəbul edərək ailədən üzr istəmişdi. Məşhur geyim firması Harrisonun ailəsinə 5,4 milyon dollar məbləğində cərimə ödəyəcək.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.300

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “E-Q” mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.